www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 20-26 may 2026-cı il Çərşənbə № 19 (8868) Qiymәti 1 manat

**Xəbər**

**"Qurban bazarı"nda ən ucuz və ən bahalı heyvanlar**

yazısı səh.2-də

**Ölkə**

**Başkənd üçün iki ölkədə referendum!?**



Paşinyan niyə indi "Başkənddən imtina edə bilmərik" dedi?

yazısı səh.4-də

**Bakı-Moskva xəttində intensiv müzakirələr**

yazısı səh.12-də

**Türk dövlətlərinin "TDT+" yaratmaq iddiası**

yazısı səh.9-da

**İrəvanın 28 may paradı Moskvaya mesajdır**

yazısı səh.8-də

**Bakı Qlobal Cənub üçün BMT-dən mandat istəyir**

yazısı səh.6-da

**ÜST-dən yenə fövqəladə vəziyyət qərarı**

yazısı səh.12-də

**Məmurlar işini itirir, yoxsa bazar dəyişir?**

yazısı səh.14-də

**Prezident "Euronews"a müsahibəsində nələr dedi?**

yazısı səh.6-da

**Yer əhalisinin 70%-i şəhərlərdə yaşayacaq**

yazısı səh.14-də

**Bakıda taksi sayı 57 mindən 20 minə düşüb**

yazısı səh.3-də

**Azərbaycanda minimum maaş 700 manat olarsa...**

yazısı səh.10-da

**3+3 formatının süqutu**

yazısı səh.11-də

# BAKI "ÜÇÜNCÜ İRAN MÜHARİBƏSİ" HAZIRLIĞINDA

ABŞ ilə İran arasında hərbi ritorikanın sərtləşməsi yeni savaşərəfəsi anons sayıla bilər; Tramp da son xəbərdarlığını etdi - Azərbaycan hansı strateji hazırlıq modelini seçməlidir?



yazısı səh.5-də

# İcra hakimiyyətlərinə tender qadağası

Əsas səbəb kimi "qalib" şirkətlərin rayondakı vəzifəli şəxslərin, bir çox hallarda isə məhz icra başçısının himayəsində olmasıdır

yazısı səh.3-də



**Masazıra "göydən düşən oğlan" - Dambrauskas kimdir?**

yazısı səh.7-də



**Öcalana "xüsusi status" təklifinə Bakıdan reaksiya**

yazısı səh.9-da



**Qalibafa yeni görəv**

yazısı səh.11-də



## Gürcüstana qatar bileti neçəyə olacaq

**Mayın 26-da Bakı-Tiflis-Bakı marşrutu üzrə gündəlik sərnişin qatarlarının fəaliyyəti bərpa olunacaq. Bu qərar Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin WUF13-lə əlaqədar Bakıya rəsmi səfəri çərçivəsində, Azərbaycan Prezidenti İlham Əliyevlə keçirilən yüksəksəviyyəli görüşlərdə imzalanan ikitərəfli sazişlər əsasında rəsmiləşib.**

Bəs Bakıdan Tiflisə və əks istiqamətə qatar biletləri hansı qiymətə olacaq? Biletlər nə zaman satışa çıxarılacaq?

"Azərbaycan Dəmir Yolları" QSC-dən "Yeni Sabah"a bildirilib ki, hər iki məsələ ilə bağlı dəqiqləşdirmələr aparılır və bu barədə ictimaiyyətə məlumat veriləcək. "Marşrutu üzrə biletlər yaxın zamanda satışa təqdim olunacaq. Bu barədə rəsmi səhifəmizdə elan veriləcək", - qurumdan qeyd olunub.

**İqtisadçı Natiq Cəfərli** isə hesab edir ki, biletlərin qiyməti 7 il əvvəl qatarların fəaliyyəti dayandırılanda olan qiymətlərdən fərqlənəcək: "Əlbəttə, ötən 7 il ərzində baş verən inflyasiya, yeni nəqliyyat xərcləri nəzərə alınacaq və qiymətlər müəyyən dərəcədə dəyişəcək. Amma bu qiymətlər aviabiletlərdən ən azı 2-3 dəfə ucuz olmalıdır ki, sərnişinlər üçün sərfəli olsun.

Ona görə də, düşünürəm ki, qatar biletləri təyyarə biletlərindən ən az 3 dəfə ucuz olacaq. Məsələn, bu gün Bakı-Tiflis təyyarə reysi üzrə bir gedişin qiyməti 168-170 manat arasında dəyişir. Bu qiyməti 3-ə bölsək, 55-56 manat edir. Belə təxmin etmək olar ki, yuxarı kateqoriyalı biletlər 80-90 manat, daha aşağı kateqriyalılar 60-70, sadə biletlər isə 40-50 manat civarında ola bilər".

Xatırladaq ki, Azərbaycandan Gürcüstana sərnişin qatarlarının fəaliyyətinin dayandırılmasından əvvəl (köhnə tariflərlə) qiymətlər yerin konfiqurasiyasına (vaqon tipinə) görə təxminən belə dəyişirdi:

Plaskart (açıq kupe) bir nəfər üçün 24-26 manat, kupe 35-40 manat, SV (yataqlı) 57-60 manat.


Polad Bülbüloğlu

## "Zəfər marşı" istədiyim səviyyədə alınmadı..."

**Xalq artisti Polad Bülbüloğlu üzərində işlədiyi "Zəfər marşı" ilə bağlı son vəziyyəti açıqlayıb.**

Modern.az-ın əməkdaşının sualını cavablandıran deputat bildirib ki, marş üzərində işlər davam edir. O xatırladıb ki, bir müddət əvvəl mətbuata açıqlamasında "Zəfər marşı" üzərində çalışdığını demişdi.

Polad Bülbüloğlu qeyd edib ki, əsərin ərsəyə gəlməsi üçün hələ müəyyən zaman tələb olunur. Onun sözlərinə görə, hazırkı variant istədiyi səviyyədə alınmayıb.

"Hələ ki marş istədiyim səviyyədə alınmayıb. Amma üzərində işləməyə davam edirəm", - deyə deputat vurğulayıb.

Sabiq diplomat bildirib ki, "Zəfər marşı" Azərbaycanın tarixi qələbəsinin ruhuna uyğun olmalıdır. O hesab edir ki, belə bir əsər yüksək peşəkarlıq və xüsusi məsuliyyət tələb edir.

Polad Bülbüloğlu əlavə edib ki, musiqinin həm emosional, həm də milli ruhu özündə əks etdirməsi vacibdir. Deputatın sözlərinə görə, marş üzərində yaradıcı axtarışlar davam edir.

Qeyd edək ki, Polad Bülbüloğlu uzun illərdir Azərbaycan musiqi mədəniyyətinin tanınmış simalarından biri hesab olunur. O, müxtəlif illərdə bir sıra məşhur musiqi əsərlərinin müəllifi kimi də tanınıb.

# "Qurban bazarı"nda ən ucuz və ən bahalı heyvanlar



**Qurban bayramı yaxınlaşdıqca Azərbaycanda qurbanlıq heyvan bazarında qiymətlər yüksəlməyə başlayır.**

Xüsusilə qoyun, quzu və iribuynuzlu heyvanlara tələbat artdığı üçün satıcılar qiymətləri mərhələli şəkildə qaldırırlar.

"Cebheinfo.az"ın araşdırmasına görə, bu il də bazarda ötən illə müqayisədə bahalaşma müşahidə olunur.

Hazırda Bakıda və ətraf bazarlarda ən çox satılan qurbanlıq heyvanların qiymətləri belədir:

* Quzu - təxminən 300-450 manat
* Qoyun - 450-700 manat
* Keçi - 350-500 manat
* Dana - 1400-2500 manat
* İnək - 2500 manatdan yuxarı.

Qiymətlər heyvanın çəkisinə, cinsinə, saxlanma şəraitinə və gətirildiyi bölgəyə görə dəyişir.

Satıcılar bildirirlər ki, xüsusilə iri və kök heyvanlara maraq daha çox olduğundan onların qiyməti daha sürətlə artır.Bazarda ən çox diqqət çəkən məqamlardan biri quzu və qoyun qiymətləridir.

Bir neçə il əvvəl 200-250 manata satılan qurbanlıq quzular indi 300 manatdan aşağı tapılmır. İri qoyunların qiyməti isə bəzi hallarda 700-800 manata qədər yüksəlir.

Satıcıların sözlərinə görə, əsas səbəb yem qiymətlərinin və heyvan saxlama xərclərinin artmasıdır. İribuynuzlu heyvanlarda da ciddi qiymət fərqi var. Dana və inəklər adətən bir neçə nəfərin birgə qurban kəsməsi üçün alınır. Bu səbəbdən onların qiyməti daha yüksək olsa da, pay bölgüsündə sərfəli hesab edilir. Xüsusilə çəkisi çox olan danaların qiyməti 3 min manata yaxınlaşa bilir.

Ekspertlər qeyd edir ki, qiymət artımına təsir edən əsas amillərdən biri də bayrama yaxın günlərdə tələbatın kəskin yüksəlməsidir. İnsanlar son günlər alış etdiyi üçün bazarda süni bahalaşma yaranır. Bundan əlavə, bölgələrdən Bakıya heyvan daşınması üçün nəqliyyat xərcləri də qiymətə təsir edir.

Mütəxəssislər alıcılara qurbanlıq seçimində yalnız qiymətə deyil, heyvanın sağlamlığına və baytarlıq nəzarətindən keçib-keçməməsinə də diqqət etməyi tövsiyə edirlər.

Çünki bayram dövründə bəzi hallarda xəstə və ya normaya uyğun olmayan heyvanların satışa çıxarıldığı da müşahidə olunur.



## Ucarda oğul anasını traktorla vuraraq öldürdü

**Ucarda oğul anasını traktorla vuraraq öldürüb. Hadisə rayonun Alpı kənd ərazisində baş verib. Ucar şəhər sakini, 1989-cu il təvəllüdlü Gündüz Yaqub oğlu Faxrətov "Belarus" markalı traktoru arxaya verərkən anası, 1959-cu il təvəllüdlü Adilə Əkbər qızı Abbasovanı vurub. Ağır xəsarət alan A.Abbasova həyatını itirib.**

Faktla bağlı araşdırma aparılır.

## Səfir: "Quru sərhəd seçkidən sonra açılacaq"



**Türkiyə ilə Ermənistan arasında sərhəd iyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkilərindən və konstitusiya dəyişikliklərindən sonra açılacaq.**

Bunu Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov bildirib.

Diplomat qeyd edib ki, Azərbaycan Türkiyə ilə daim əlaqədədir və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə paralel olaraq Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesi də davam edir.

O əlavə edib ki, Ermənistanda keçiriləcək parlament seçkilərindən sonra konstitusiya dəyişiklikləri yolu ilə Ermənistan Konstitusiyasının Azərbaycana qarşı ərazi iddialarını aradan qaldıracağı gözlənilir.

R.Məmmədovun sözlərinə görə, Azərbaycanla Ermənistan arasında əvvəllər ABŞ-də razılaşdırılmış sülh müqaviləsi imzalanacaq. Azərbaycanlı diplomatın sözlərinə görə, bu proses başa çatdıqdan sonra Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan sərhədləri də açılacaq.




## Xankəndinə qatar nə vaxt gedəcək?

**Xankəndidə dəmiryol vağzalının 2027-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Bu sözləri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov WUF13 çərçivəsində Azərbaycan pavilyonunda "Münaqişədən sonrakı şəhərsalma: Məhv edilmiş kimliyin bərpası və inteqrasiya olunmuş gələcəyin yenidən qurulması" mövzusunda tədbirdə çıxışı zamanı deyib.**

O bildirib ki, Xankəndi dəmir yolunun inşasına başlanılıb: "Artıq layihələndirmə işlərinin 90 faizi, tikinti işlərinin 50 faizi həyata keçirilib. Gələn il üçün tikinti işlərinin yekunlaşdırılması və istifadəyə verilməsi planlaşdırılır".

## Azərbaycanlı yazıçı Bakıya buraxılmadı

**Güney azərbaycanlı yazıçı, Azərbaycan Respublikasında da yaxşı tanınan Əli Çağla Bakı Beynəlxalq Hava Limanından ölkəyə buraxılmayıb və İrana deport olunub.**

Bu barədə Əli Çağla özü məlumat yayıb.

O bildirib ki, mayın 19-da Tehrandan saat 11:00 reysi ilə Bakıya uçub. Yalnız Bakıya enəndə yadına düşüb ki, yeni qaydalara əsasən, aeroportda viza almaq proseduru ləğv edilib: "İndi vizalar elektron şəkildə 3-5 gün öncədən alınır. Bakıya - Heydər Əliyev Beynəlxalq Hava Limanına çatdığımda Sərhəd Xidmətinin əməkdaşları vizanın olmadığını bildirib, məni deportasiya sənədi ilə Tehrana geri qaytardılar".

Əli Çağla qeyd edib ki, Bakıya VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalına dəvət olunub və festivala görə də Bakıya gəlirmiş.

Qeyd edək ki, Bakıda VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı 22-26 may tarixlərində keçiriləcək.

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

# İcra hakimiyyətlərinə tender qadağası

## Əsas səbəb kimi "qalib" şirkətlərin rayondakı vəzifəli şəxslərin, bir çox hallarda isə məhz icra başçısının himayəsində olmasıdır




**Son aylar bir sıra rayonlarda icra hakimiyyətlərinin tenderləri ləğv edilib. Bu, xüsusilə rayon küçələrində bir sıra işlərin görülməsi ilə bağlı elan edilmiş tenderlərdə özünü göstərir. Məsələn, ötən həftə Siyəzən Rayon İcra Hakimiyyətinin keçirmək istədiyi 3 tenderin hamısı ləğv edilib. Məlumatda bildirilir ki, ləğv edilən tenderlərdən biri Siyəzən şəhərinin şəhər daxili yollarının əsaslı təmir işləri ilə bağlı olub. 212 min 888 manatlıq büdcəyə əsaslanan təmir işlərinin dayandırılmasının səbəbi isə qanunvericiliyin tələbinin pozulması olub.**

İkinci tender isə Siyəzəndə Heydər Əliyev küçəsi 17, 19, 23 nömrəli binaların əsaslı təmirini ehtiva edib. 29 min 289 manatlıq layihənin dayandırılması da hazırlanan sənədlərin və iştirakçı sayının 3-dən az olması olub. Rayondakı üçüncü tender isə cari təmir işləri ilə bağlı olub. Bunun üçün 25 min 876 manat vəsait ayırmağı da nəzərdə tutub. Lakin nəticələr ləğv edilib. (Mənbə: Tia.az).

Rayonlarda son aylar tenderlərin ləğv edilməsinə əsas səbəb kimi qalib şirkətlərin rayondakı vəzifəli şəxslərin, bir çox hallarda isə məhz icra başçısının himayəsində olmasıdır. Bu səbəbdən abadlıq işləri, yolların, mənzil fondunun təmiri ilə bağlı tenderlər il ərzində bitmək bilmir. İddialara görə, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin hökumət üçün hazırladığı özəl hesabatda da bir çox rayonlarda tenderlərdə şişirtmələr faktı o qədər aşkardır ki, qanunsuzluğu gizlətmək mümkün deyil.

**Tanınmış vəkil, iqtisadçı ekspert Əkrəm Həsənov** "Yeni Müsavat"a deyib ki, tenderlərin bu şəkildə keçirilməsi yeni hal deyil: "Nəinki yerli icra hakimiyyəti orqanları, ümumiyyətlə, dövlət qurumlarının mütləq əksəriyyəti tenderləri kobud pozuntularla keçirir. Yəni qalib şirkət qabaqcadan məlum olur. Şirkətin, yəni qalib şirkətin bu və ya digər şəkildə tenderi elan edən qurumun rəhbərliyi ilə yaxınlığı olur. Digər iştirakçılar ya formal olur, ya da kimdənsə xahiş edirlər ki, gəlin, siz də iştirak edin, elə edək ki, iştirakçı üçdən az olmasın. Hətta kənar bir şəxs tenderə qatılsa, elə edirlər ki, onun təklifi keçməsin. Bu məsələlər əksəriyyətə məlumdur".

**Əkrəm Həsənov "tenderlərlə bağlı yaranan vəziyyəti dəyişmək üçün nə etmək lazımdır" sualına belə cavab verib:** "Tender keçirilməsinin ilk şərti şəffaflıqdır. Şəffaflıq yoxdursa, tenderdən söhbət gedə bilməz. Azərbaycan Respublikasında dövlət satınalmaları - tenderlər sahəsində dövlət nəzarətini birbaşa Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi həyata keçirir. Agentlik tender prosedurlarında qanunvericiliyin tələblərinə əməl olunmasını təmin edir, rəqabəti qoruyur, qiymət şübhələrini araşdırır və satınalmalarla bağlı şikayətlərə baxır. Amma bu quruma etibar yoxdur. Haradan bilək ki, agentlik bu və ya digər tenderin keçirilməsini yoxladı? Biz axı o prosesləri görmürük. İctimai nəzarət yoxdur. Dövlət orqanına nəzarət yoxdursa, orada da sövdələşmə ola bilər. İctimai nəzarət də nədir? Birincisi, qanuna görə hər bir dövlət qurumu illik nəyi, nə qədər alacağı qabaqcadan saytda yerləşdirilməlidir. İctimai nəzarət buradan başlayır. Millət bilməlidir ki, sən, ümumiyyətlə, nəyi necə və neçə manata alırsan".

**Ekspert dedi ki, Azərbaycanda bu qaydaya riayət edən dövlət qurumu yoxdur:** "Tenderin keçirilməsi haqda elanı əvvəlcədən, qanunun tələb etdiyi kimi, ilin əvvəlində versələr, ayrı-ayrı şəxslər xəbər tutub tenderdə iştirak edə bilərlər. Bunlar isə tender haqda məlumatları elə vaxt verirlər ki, heç kəs xəbər tutmasın. Çünki ilin əvvəlində elan olunsa, kənar iştirakçılar gələ bilər. Digər sahibkarlıq subyektləri də illik tender planlarını bilib dövlət qurumlarının tenderlərində iştirak edə bilərlər. Buna yol vermirlər".

**Əkrəm Həsənov digər mühüm məqama da toxunub:** "İkinci məsələ isə kommersiya hüquqi şəxslərinin reyestrinin qapalı olmasıdır. Hansı ki, heç bir sivil ölkədə, nəinki sivil ölkədə, Rusiyada belə şey yoxdur. Kommersiya hüquqi şəxslərinin sahiblərini hər kəs girib sistemdə görə bilməlidir. Biz onu görə bilsək, biləcəyik ki, hansısa şirkət kimlə bağlıdır, təsisçiləri kimdir. Buna imkan vermirlər. İctimai nəzarət də sıfırdır, yoxdur. Bu gün biz ancaq hansısa şirkətin nə vaxt qeydiyyata alınmasını, kapitalının nə qədər olmasını görə bilirik. O heç, sahibləri kimdir? Bunlar görünərsə, artıq bilinəcək ki, hansı şirkətlər kimə yaxındır. Aydındır ki, heç biri şirkəti öz adlarını etməyəcək. Qohumun, tanışın, bağbanın, aşpazın, sürücünün adına edəcəklər. Amma bu zaman da şirkətin kimə məxsus olmasını müəyyən etmək mümkün olacaq. Kimindir bu? Haradan çıxdı bu? Niyə bu qalib oldu? Yəni məsələ budur. İctimai nəzarətin yolu budur".

**Əkrəm Həsənov vəziyyətdən çıxmaq üçün əvvəllər səsləndirdiyi təklifi yenidən təkrarlayıb:** "Hər bir dövlət qurumunun büdcəsi, smetası, səmərəlilik əmsalı var. Olmazmı ki, istisna hallar xaric, bunu aylıq əsaslarla internetdə göstərsinlər? İstisna edək yalnız Müdafiə Nazirliyini, dövlət təhlükəsizliyi ilə bağlı qurumları ki, onları heç kəs görməməlidir. Bu dövlət təhlükəsizliyi məsələləridir. Amma o biri dövlət qurumlarında nə problem var ki, yazsınlar nəyi, neçəyə aldılar? Dövlət büdcəsi Azərbaycan xalqınındırsa, niyə bu məlumatlar gizli olmalıdır? Tenderlərdə bu və ya digər dövlət qurumu nə alıb, neçəyə alıb biz də vətəndaş olaraq görüb müqayisə edək. Bilməliyik ki, bir dövlət qurumu karandaşı niyə bir, o birisi başqa qiymətə alır. Bunlar açıq məlumatlar olmalıdır. Olmadıqca, tenderlər elə bugünkü qaydalarla, yəni qanunun tələbindən kənar keçiriləcək, dövlət büdcəsindən satınalmalara yönləndirilən məbləğlərə əli çatanlar necə istəyirlərsə, elə də xərcləyəcəklər. Tezliklə tenderlərin qanunun tələb etdiyi şəkildə keçirilməsi təmin olunmalıdır ki, vəziyyət yaxşılığa doğru dəyişsin, büdcədən ayrılan vəsaitlər necə gəldi xərclənməsin".

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**




# Bakıda taksi sayı 57 mindən 20 minə düşüb

**Azərbaycan üçün əlaqələndirmə yalnız xəritədəki xətlərdən ibarət deyil, bu, ölkənin gələcəyini formalaşdıran strateji seçimdir.**

Bunu Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Bağlantının mərkəzində şəhərlər: şəhərlərin yenidən qurulması və regional əməkdaşlıq" mövzusunda xüsusi sessiyada Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib.

"Bu gün qurduğumuz hər bir yol, dəmir yolu və logistika infrastrukturu gələcək iqtisadi inkişaf modelimizi müəyyən edir. Azərbaycan Avrasiyanın kəsişməsində yerləşir və 2021-ci ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə tranzit marşrutlarının ölkəmizdən yan keçməməsi üçün mühüm addımlar atılıb. Nəticədə tranzit daşımalarında təxminən iki dəfə artım qeydə alınıb. Ötən il Avrasiya boyunca təxminən 17 milyon ton yük daşınıb".

Nazirin sözlərinə görə, Xəzər dənizi, dəmir yolları və liman infrastrukturu Mərkəzi Asiyadan və Çindən gələn yüklərin Türkiyə sərhədinə 15-18 gün ərzində çatdırılmasına imkan yaradır: "Logistika mərkəzləri ətrafında yeni iqtisadi zonalar və yaşayış məkanları formalaşır. Bu isə əsas sualı ortaya çıxarır: biz hansı şəhərləri qururuq və uzunmüddətli perspektivdə onları necə görürük?"

**R.Nəbiyev çıxışında Bakı şəhərində nəqliyyat transformasiyasına da toxunub:** "Əsas məqsəd vətəndaşların şəxsi avtomobil və taksilərdən daha çox ictimai nəqliyyata keçidini təmin etmək olub. Bir vaxtlar Bakıda təxminən 57 min taksi fəaliyyət göstərirdi. Bu gün onların sayı 20 minə enib. Bununla belə, sosial problem yaranmayıb. Çünki proses ağıllı şəkildə idarə olunub. Əvvəllər bəzi taksi sürücüləri sutkada 24 saata qədər işləyirdi ki, bu da sərnişinlər üçün təhlükə yaradırdı. İndi isə onların iş saatları normallaşıb və xidmətin keyfiyyəti artıb".

**O həmçinin vurğulayıb ki, şəhər mobilliyi yalnız avtomobil yolları ilə məhdudlaşmamalıdır:** "Velosipedlər, skuterlər və piyadalar üçün imkanların genişləndirilməsi də şəhər həyatının keyfiyyətinə, ətraf mühitə və karbon emissiyalarının azalmasına təsir göstərən əsas istiqamətlərdəndir".

R.Nəbiyev qeyd edib ki, Bakı üçün əsas hədəflərdən biri şəhəri tək mərkəzli modeldən çoxmərkəzli inkişafa keçirməkdir.

"Məqsəd insanların məktəbə, iş yerinə, səhiyyə və mədəniyyət obyektlərinə daha qısa müddətdə çata bilməsidir. Cəmiyyətdə uzun illər belə fikir var idi ki, tıxac problemini həll etmək üçün daha çox yol tikmək lazımdır. Amma dünya təcrübəsi göstərir ki, daha çox yol tikmək küçələrdə sıxlığı aradan qaldırmır. Yollar avtobus şəbəkəsini, avtobuslar dəmir yolunu, dəmir yolu isə metronu qidalandırmalıdır. Hər bir nəqliyyat qatı digərini gücləndirməlidir", - deyə o bildirib.

# Başkənd üçün iki ölkədə referendum!?

## Paşinyan niyə indi "Başkənddən imtina edə bilmərik" dedi?; ekspertlərə görə, Azərbaycanın əlində daha güclü arqumentlər var və yeni şərtlər irəli sürə bilər

**Ermənistanın baş naziri Nikol Paşinyan deyib ki, Bakı və İrəvan ərazi bütövlüyü məsələsində eyni yanaşma sərgiləyiblər. "Biz də Azərbaycanın ərazi bütövlüyünü onlar bizim ərazi bütövlüyümüzü tanıdığı kimi tanımışıq"? - deyə o bildirib.**



Paşinyan Başkənd qəsəbəsinə iddialarını da dilə gətirib. O bildirib ki, həmin yaşayış məntəqəsini "geri alacaqlar". "Bizim özümüzün bir problemimiz var: Başkənd Ermənistan Respublikasının suveren ərazisidir və biz bundan imtina edə bilmərik".

Gədəbəy rayonu ərazisində yerləşən Başkənd yaşayış məntəqəsi sovet dövründə kənd təsərrüfatı ehtiyacları ilə əlaqədar SSRİ rəhbərliyinin qərarı ilə Ermənistan SSR-in tabeliyinə verilib. Həmin dövrdə kəndin əhalisi də əsasən ermənilərdən ibarət olub.

Ərazisi 40 kvadrat kilometr olan kəndin adı 1978-ci ildə dəyişdirilərək Artsvaşen (ermənicədən tərcümədə "Qartalkənd" deməkdir) adlandırılıb.

Birinci Qarabağ müharibəsi zamanı 1992-ci il 6-8 avqust tarixlərində həyata keçirilən hərbi əməliyyat nəticəsində ərazi Azərbaycanın nəzarəti altına keçib.

Ermənilər kəndi tərk edəndən sonra Başkənddə məskunlaşma olmayıb. Ətraf kəndlərin sakinləri bu ərazilərdə kənd təsərrüfatı ilə məşğul olurlar.

Bəzi ekspertlərə görə, anklavların qarşılıqlı dəyişdirilməsi üçün hər iki ölkədə referendum keçirilməsi də mümkündür. Çünki məsələ ərazi mübadiləsi ilə həll olunacağı halda referendum gündəmə gələ bilər. Çünki Azərbaycan Konstitusiyası da, Ermənistan Konstitusiyası da ərazi dəyişikliyinin ancaq referendum yolu ilə mümkünlüyünü təsbit edib. Bəzi ekspertlər də güman edir ki, Paşinyan indilikdə belə danışmalıdır, çünki kritik seçkilər qapıdadır. Əslində baş nazir özü də fərqindədir ki, Başkənd kimi mübahisəli məsələlər ən sonda həll oluna bilər.

**Hüquqşünas Qulamhüseyn Əlibəyli** "Yeni Müsavat"a dedi ki, Azərbaycanla Ermənistan arasında anklav-eksklav məsələsi postsovet məkanında mürəkkəb sərhəd problemlərindən biri hesab olunur: "SSRİ dövründə Azərbaycanla Ermənistan arasındakı sərhədlər inzibati xarakter daşıyırdı. Buna görə də sərhəd nəzarəti yox idi, anklavların mövcudluğu ciddi problem yaratmırdı, əhali sərbəst hərəkət edə bilirdi. Lakin 1991-ci ildə SSRİ dağıldıqdan sonra yeni yaranan müstəqil dövlətlərin sərhədlərinin müəyyən olunarkən həmin inzibati sərhədlər əsas kimi götürüldü və Azərbaycanla Ermənistan arasındakı həmin inzibati sərhədlər dövlət sərhədlərinə çevrilərək beynəlxalq status aldı, əvvəllər daxili inzibati xarakter daşıyan bir sıra ərazi məsələləri, o cümlədən anklav-eksklav məsələsi beynəlxalq hüquqi müzakirə predmeti oldu. Bu yanaşma 1991-ci il Almatı Bəyannaməsində təsdiq edildi. Bu baxımdan Azərbaycanla Ermənistan arasında anklav-eksklav məsələsi həm hüquqi, həm siyasi, həm də təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. Məsələ bundan ibarətdir ki, Ermənistanda eksklav kimi yerləşən Azərbaycan kəndləri hazırda Ermənistanın tam nəzarəti altındadır, həmin kəndlərdə Azərbaycanın heç bir mülki və ya hərbi strukturu yoxdur. Eləcə də Başkənd faktiki olaraq Ermənistanın deyil, Azərbaycanın nəzarəti altındadır. Problemi mürəkkəbləşdirən daha bir amil ondan ibarətdir ki, Azərbaycanın eksklav kəndləri Ermənistan üçün strateji əhəmiyyətli ərazilər hesab olunur. Eləcə də Başkənd Azərbaycan üçün strateji əhəmiyyətli hesab olunur".

**Q.Əlibəyli onu da xüsusi olaraq diqqətə çatdırdı ki, Başkəndin əvvəllər Azərbaycana məxsus olması, sonradan SSRİ rəhbərliyi tərəfindən Ermənistanın tabeliyinə verilməsi faktdır:** "Burada bir məsələ dəqiqləşdirilməlidir. Həmin dövrdə qüvvədə olan konstitusiyaya görə, müttəfiq respublikanın ərazisi onun rəsmi razılığı olmadan başqa respublikaya verilə bilməzdi; bu razılığı isə müttəfiq respublikanın Ali Soveti və ya onun Rəyasət Heyəti verə bilərdi. Ona görə də Başkəndin Ermənistanın tabeliyinə verilməsinə Azərbaycan Ali Sovetinin və ya onun Rəyasət Heyətinin razılığının olub-olmaması məsələsi dəqiqləşdirilməlidir. Yalnız Başkəndin Ermənistanın tabeliyinə verilməsi lazımi qaydada rəsmiləşdirilibsə, onda anklav kimi baxıla bilər və müzakirə predmeti ola bilər.

Azərbaycanla Ermənistan arasında anklav-eksklav probleminin həlli vasitəsi kimi ərazi mübadiləsi təklifi var. Əgər Başkəndin həqiqətən də anklav statusu təsdiq olunarsa və həm Azərbaycan, həm də Ermənistan ərazi mübadiləsi barədə razılığa gələrlərsə, onda referendumun keçirilməsi məcburi xarakter daşıyır. Belə ki, konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir. Yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər".

**Siyasi təhlilçi Sona Əliyevanın fikrincə, bu məsələdə Azərbaycanın əlində olan arqumentlər daha keçərlidir**: "Paşinyanın "Başkənd Ermənistanın suveren ərazisidir, biz bundan imtina edə bilmərik" deməsi ilk baxışda sərt bəyanat kimi görünə bilər. Amma bu açıqlamanın arxasında daha çox erməni cəmiyyətinə hesablanmış daxili siyasi mesaj dayanır. Ermənistanda seçki yaxınlaşdıqca Paşinyan cəmiyyətə göstərməyə çalışır ki, guya Ermənistan heç bir mövqedən geri çəkilmir. Bir tərəfdən Azərbaycanla sülh prosesindən danışır, digər tərəfdən erməni ictimaiyyətinə "biz ərazi məsələlərində güzəşt etmirik" mesajını verir. Bu, klassik siyasi manevrdir. Amma reallıq bəyanatlardan fərqlidir. Başkənd uzun illərdir Azərbaycanın nəzarətindədir. Kənd boşdur, orada yaşayış yoxdur və dörd tərəfdən Azərbaycan kəndləri ilə əhatə olunub. Ermənistan sabah bu ərazini istəsə belə, orada necə idarəçilik quracaq? Təhlükəsizliyi necə təmin edəcək? Yol, kommunikasiya, gündəlik yaşayış məsələləri necə həll olunacaq? Bu suallar açıq qalır. Ona görə də Paşinyanın "geri alacağıq" deməsi daha çox siyasi ritorikadır. Çünki Başkənd məsələsi bir bəyanatla həll olunacaq məsələ deyil. Bu mövzu sərhəd delimitasiyasının ən mürəkkəb və ən gec həll olunacaq hissələrindən biridir. Burada Azərbaycanın da çox ciddi mövqeyi var. Əgər Ermənistan Başkəndi gündəmə gətirirsə, Azərbaycan da Kərki və digər anklavlar məsələsini masadan kənarda saxlamayacaq. Xüsusilə Kərki təkcə kənd məsələsi deyil. Bu, Naxçıvan istiqaməti, regional kommunikasiya və strateji təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıyır. Yəni Ermənistan Başkənd üzərindən siyasi kart oynamaq istəyirsə, bilməlidir ki, Azərbaycanın əlində daha ciddi arqumentlər var. Azərbaycan öz ərazi bütövlüyü və suverenliyi məsələsində geri addım atan dövlət deyil. 44 günlük müharibədən sonra bölgədə yaranan yeni reallıq bunu açıq şəkildə göstərdi.

Düşünürəm ki, Başkənd məsələsi ayrıca həll olunmayacaq. Bu məsələ Kərki və digər anklavlarla birlikdə ümumi sərhəd razılaşmasının içində müzakirə ediləcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ağdam-Şuşa yolunun tikintisi yekunlaşır

## Xüsusi nümayəndə: "Xankəndinin görkəmini pozan tikililər sökülür"

**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində işğaldan azad edilmiş ərazilərdəki mövcud infrastruktur və görülən işlər barədə mühüm açıqlamalar verilib.**




Forumun müvafiq panel sessiyasında çıxış edən **Xankəndi şəhəri, Xocalı və Əsgəran rayonları üzrə xüsusi nümayəndə Elçin Yusubov** fəaliyyətə başladığını bildirərək ərazinin miqyasını diqqətə çatdırıb: "Xankəndi inzibati ərazisi Xankəndi şəhəri və Kərkicahan qəsəbəsindən ibarətdir. Ağdərənin 59, Xocalının isə 55 kəndi var. Kifayət qədər böyük bir bölgədən söhbət gedir və bu ərazi ciddi torpaq ehtiyatlarına malikdir".

E.Yusubov vurğulayıb ki, fəaliyyətə başlayarkən qarşıya çıxan ilk və ən mühüm məsələ təhlükəsizliyin təmin edilməsi olub. Ərazinin mina və hərbi sursatlardan təmizlənməsi prosesi ilə paralel olaraq quruculuq işlərinə start verilib. O, işğal dövründə infrastrukturun tamamilə baxımsız qaldığını qeyd edib: "Media nümayəndələrində elə bir fikir yaranmasın ki, işğaldan sonra normal şəhər və kəndlər təhvil almışıq. 30 illik işğal dövründə bu üç ərazidə yeni tikililər inşa edilməyib. Mövcud binalar Azərbaycan memarlığına uyğun olmayan formadadı, qaz sistemi bərbad vəziyyətdəydi, su və kanalizasiya sistemlərinə isə bir qəpik belə xərc çəkilməmişdi. Bu böyüklükdə ərazidə yalnız bir məscid - Malıbəyli məscidi uçmuş vəziyyətdə qalmışdı. Xankəndi qəbiristanlığının isə izi tamamilə itirilmişdi".

Bölgədə aparılan şəhərsalma işlərinə toxunan xüsusi nümayəndə ilk növbədə utilizasiya prosesinin həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, tikinti normalarına cavab verməyən, şəhərin ümumi görkəminə xələl gətirən və insan yaşayışı üçün tamamilə yararsız olan yöndəmsiz tikililər müvafiq dövlət orqanlarının rəsmi rəyi əsasında sökülüb. Hazırda bu ərazilərdə müasir tipli binaların tikintisi və layihələndirilməsi işləri sürətlə davam etdirilir.

Bölgənin loqistika imkanlarının bərpası istiqamətində strateji layihələrin icra olunduğunu deyən E.Yusubov Ağdam-Şuşa magistral yolunun böyük hissəsinin Xocalı və Xankəndidən keçdiyini bildirib. Çətin relyef şəraitinə baxmayaraq, müvafiq qurumlar tərəfindən yolun tikintisi yaxın vaxtlarda başa çatdırılacaq.

**Çıxışın ən diqqətçəkən məqamı isə Xankəndi dəmir yolunun istifadəyə veriləcəyi tarixlə bağlı olub:** "2024-cü ildə Prezident İlham Əliyevin göstərişi ilə Xankəndidə dəmir yolu və avtobus vağzalı kompleksinin tikintisinə start verilib. Hazırda nəzərdə tutulan işlərin 40 faizi artıq icra olunub. Gələn il Xankəndi dəmir yolunun tam fəaliyyətə başlaması və istifadəyə verilməsi gözlənilir".

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

**ABŞ ilə İran arasında gərginliyin artması və hərbi ritorikanın sərtləşməsi 12 və 40 günlük müharibələrdən sonra yeni savaş hazırlığını anonsu sayıla bilər. Bu da təbii olaraq Cənubi Qafqaz regionu üçün yeni risklər yaradır. Ötən hərbi əməliyyatlar zamanı Naxçıvanın da hədəf seçilməsi onu deməyə əsas verir ki, mümkün eskalasiya regiona təsirsiz ötüşməyəcək. Belə bir şəraitdə əsas suallardan biri budur: Bakı hansı strateji hazırlıq modelini seçməlidir?**

# Bakı "üçüncü İran müharibəsi" hazırlığında

## ABŞ ilə İran arasında hərbi ritorikanın sərtləşməsi yeni savaşərəfəsi anons sayıla bilər; Tramp da son xəbərdarlığını etdi - Azərbaycan hansı strateji hazırlıq modelini seçməlidir?

Mövcud reallıq göstərir ki, Azərbaycan üçün ən optimal yol yenə də balanslaşdırılmış və çoxşaxəli siyasətin davam etdirilməsidir. Bir tərəfdən ABŞ və Qərb ilə əməkdaşlıq, digər tərəfdən isə İranla qonşuluq münasibətlərinin saxlanılması incə diplomatik manevrlər tələb edir. Açıq şəkildə tərəf tutmaq əvəzinə, diplomatik kanalların açıq saxlanılması və gərginliyin azaldılmasına yönəlmiş təşəbbüslər daha məqsədəuyğun görünür.

Digər vacib istiqamət təhlükəsizlik və müdafiə sahəsidir. Regionda qeyri-müəyyənliyin artması fonunda Azərbaycan öz sərhədlərinin təhlükəsizliyini gücləndirməli, xüsusilə cənub istiqamətində nəzarəti artırmalıdır. Bununla yanaşı, hava hücumundan müdafiə sistemlərinin inkişafı və strateji obyektlərin qorunması prioritet məsələlər sırasında qalır. Bu addımlar hücum məqsədi daşımır, əksinə, mümkün risklərə qarşı preventiv tədbirlər kimi qiymətləndirilməlidir.

Enerji və iqtisadi təhlükəsizlik də diqqətdən kənarda qalmamalıdır. Azərbaycan beynəlxalq enerji bazarlarında mühüm oyunçudur və hər hansı regional münaqişə enerji marşrutlarına təsir göstərə bilər. Bu baxımdan, infrastrukturun təhlükəsizliyinin artırılması, alternativ ixrac yollarının inkişafı və bazar dəyişikliklərinə çevik reaksiya verilməsi strateji əhəmiyyət daşıyır.

Müasir dövrdə informasiya müharibəsinin rolu da danılmazdır. Dezinformasiyaların yayılması daxili sabitliyə təsir göstərə bilər. Buna görə də cəmiyyətin düzgün məlumatlandırılması, informasiya təhlükəsizliyinin gücləndirilməsi və ictimai sabitliyin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biri olmalıdır. Regional əməkdaşlıq faktorunu da xüsusi vurğulamaq lazımdır. Rusiya, Türkiyə və Gürcüstan kimi tərəfdaşlarla koordinasiya Azərbaycanın strateji mövqeyini gücləndirir və mümkün risklərə qarşı əlavə təminat yaradır. Bütün bu amilləri nəzərə alaraq demək olar ki, Bakının hazırkı mərhələdə əsas strategiyası "soyuqqanlılıq, balans və hazırlıq" prinsiplərinə əsaslanmalıdır.

Son bəyanatlar da narahatlığa əsas yaradır ki, İranla müharibə yenidən başlaya bilər. Hərçənd rəsmi Tehran 14 maddəlik təkliflər paketini Pakistan vasitəsi ilə Vaşinqtona təqdim etdiyini açıqlayıb. Ancaq İran XİN sözçüsü İsmayıl Bəqayi son brifinqdə ölkəsinin bütün variantlara hazır olduğunu açıqlayıb və ordunun cavab zərbələri endirəcəyini anons edib.

Ən nəhayət, mayın 18-də ABŞ Prezidenti Donald Tramp sosial şəbəkə hesabında yazıb ki, Qətər əmiri Təmim bin Həməd əs-Sani, Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman əs-Səud və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Məhəmməd bin Zayed ən-Nəhyan ondan İran İslam Respublikasına qarşı sabah (mayın 19-da) planlaşdırılan hərbi hücumu təxirə salmağı xahiş ediblər. O bildirib ki, hazırda ciddi danışıqlar aparılır və region liderlərinin fikrincə, saziş bağlanması məqbul variant olar: "Yuxarıda adıçəkilən liderlərə hörmətimə əsaslanaraq, hərbi nazir Pit Heqsetə, Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Daniel Keynə və Amerika Birləşmiş Ştatları Silahlı Qüvvələrinə sabah İrana planlaşdırılan hücumu təxirə salmağı, lakin məqbul bir razılaşma əldə edilmədiyi təqdirdə dərhal İrana tammiqyaslı, genişmiqyaslı hücum etməyə hazır olmalarını tapşırdım".

Göründüyü kimi, vəziyyət kifayət qədər ciddidir və hər an proseslər savaşa çevrilə bilər.



Bu böhranı genişspektrli problem adlandıran **professor Qabil Hüseynli**yə görə, Azərbaycan və region üçün həssas proseslər cərəyan edir. Mütəxəssis hesab edir ki, ilk növbədə təhlükəsizliyin təmin olunması prioritetdir: "40 günlük müharibə 12 günlükdən o mənada fərqləndi ki, həm körfəz ölkələri, həm Türkiyə, həm Azərbaycan hərbi əməliyyatlardan təsirləndi. Yeni müharibə İranın cənubunda getdiyi üçün ərəb dövlətlərinə hücumların məntiqi var idi, amma Türkiyəyə 4 dəfə ballistik raket, Naxçıvan aeroportuna isə 4 PUA zərbəsi göstərdi ki, İran aqressordur, heç bir əndazə tanımır. Bu nöqteyi-nəzərdən, zənnimcə, Azərbaycan üçün ən vacib mövzu təhlükəsizlikdir, hava hücumundan müdafiə sistemləri hər zaman ayıq-sayıq tutmaqdır".

**Q.Hüseynlinin sözlərinə görə, Naxçıvana zərbələrə dövlət başçısı haqlı olaraq sərt reaksiya verdi, lakin sonrakı dövrdə rəsmi Bakı təmkinli mövqe tutdu:** "Bu hücuma rəğmən, Azərbaycan İranla münasibətlərdə qonşuluq prinsiplərini üstün tutdu, humanitar yardım göndərdi, prezidentlər və nazirlər səviyyəsində təmaslar davam etdirildi. Belə desək, hökumətlə münasibətlər başqa, SEPAH başqa. O baxımdan, Azərbaycan emosional yox, praqmatik siyasət yürütdü. Bizim ABŞ və İsraillə tərəfdaşlıq münasibətləri tərəfsiz mövqe tutmağa əngəl olmadı. Bakı Tehrana göstərdi ki, biz poliqon və ya platsdarm deyilik. Məncə, İran bəzi nəticələr çıxardı. Əgər hərbi əməliyyatlar bərpa olunarsa, Bakının hansı mövqe tutacağı indidən bəllidir".

**Analitik bu münaqişə və hərbi eskalasiyanın region üçün iqtisadi risklər doğurduğunu da müşahidə edir:** "Xüsusən Hörmüz boğazında yaranmış böhran enerji bazarında qiymətləri artırır. Eyni zamanda logistikala təhdidlər yaradır. Misal üçün "Tramp yolu"nun işə düşməsinin yubanmasına səbəb ola bilər. Çünki münaqişələr uzananda layihələrin icrasında problemlərə gətirib çıxarır. Deməzdim ki, TRİPP reallaşmayacaq, amma ABŞ-nin İranla münaqişəsi tezliklə həllini tapmasa, dəhlizin açılmasında gecikmə istisna deyil. Ona görə də İranla bağlı məsələnin Azərbaycan üçün hərbi-siyasi və iqtisadi təsirləri var".

**Professor hesab etmir ki, yaxın vaxtlarda atəşkəs pozulacaq və üçüncü müharibə başlanacaq, amma risklərin qaldığını düşünür:** "Bu da bizi daimi narahat edir. Nəzərə alaq ki, İran münaqişəsi Ukrayna müharibəsinə oxşamır. Rusiya qonşumuz olsa da, hərbi əməliyyatlar sərhədlərimizdən çox uzaqda gedir. İrana hücumlar isə Təbrizə qədər əhatə edib. Və dediyim kimi, İran da sağa-sola zərbələr endirərkən muxtar respublikanı da hədəf almışdı. Bunun İranla sərhəd digər bölgəmizdə təkrar olunmayacağına zəmanət yoxdur. Çünki İranda müxtəlif güc mərkəzləri var, bu gün də ölkəmizi ittiham edən, hədələyən SEPAH bağlantılı resurslar rastımıza çıxır. Bu mənada, üçüncü müharibədə növbəti təxribatlardan sığortalanmamışıq. Azərbaycan münaqişənin diplomatik həllində maraqlıdır və İrana hücumlardan da narahatlığını ifadə edib. Bu münaqişənin ölkəmiz üçün heç bir müsbət dividenti ola bilməz".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## ABŞ İran müharibəsinə 85 milyard dollar xərcləyib

**ABŞ-nin İranda apardığı hərbi əməliyyata çəkilən xərclər 79 gün davam edən döyüşlər ərzində 85 milyard dollardan çox olub.**

Bu barədə "Iran War Cost Tracker" portalı məlumat yayıb.

Portalın real vaxt rejimində işləyən hesablayıcısı ABŞ Müharibə Nazirliyinin (Pentaqonun) Konqresə 10 mart tarixində təqdim etdiyi brifinqə əsaslanır. Həmin brifinqdə bildirilirdi ki, Yaxın Şərqdə döyüş əməliyyatlarının ilk 6 günündə Vaşinqton 11,3 milyard dollar xərcləyib və münaqişə davam etdikcə hər gün əlavə 1 milyard dollar xərclənməsi planlaşdırılır.

Məlumata görə, bu xərclər əvvəlcə ABŞ Müharibə Nazirliyinin maliyyə üzrə müvəqqəti müavini Culz Hurst tərəfindən açıqlanan rəqəmləri təxminən üç dəfə üstələyir. O, Konqresin Nümayəndələr Palatasının büdcə komitəsində keçirilən dinləmələrdə ABŞ-nin İrana qarşı hərbi əməliyyata təxminən 29 milyard dollar xərclədiyini bildirmişdi.

## Uranı sizə yox, Rusiyaya verək!

**İran nüvə proqramını uzunmüddətli dondurmağa razılaşıb, lakin bir şərtlə: Tehran 400 kq yüksək zənginləşdirilmiş uran ABŞ-a deyil, Rusiyaya verəcək. Bu, Vaşinqtona Pakistan vasitəsilə təqdim edilən yenilənmiş İran sülh təklifinin əsas detallarından biridir. Bu barədə "Əl-Ərəbiyə" məlumat yayıb.**

Telekanala sızdırılan məlumatlara görə, yenilənmiş İran təklifi Tehrana "özünü qorumağa" imkan verəcək siyasi formulalı, uzunmərhələli atəşkəsi nəzərdə tutur. İran nüvə proqramını ləğv etməyə deyil, dondurmağa hazırdır. 400 kq yüksək zənginləşdirilmiş uranın Rusiyaya verilməsi planlaşdırılır.

Hörmüz boğazına gəldikdə, İran Pakistan və Omanın zəmanətçi kimi iştirakı ilə boğazın mərhələli və təhlükəsiz şəkildə açılmasını təklif edir. Eyni zamanda dəniz marşrutunun nüvə məsələsindən ayrılması təklif olunur.

Nüvə proqramı və uranın zənginləşdirilməsi kimi daha mürəkkəb məsələlər isə danışıqların növbəti mərhələlərinə saxlanılır.

"Axios" portalının məlumatına görə, amerikalı bir rəsmi yenilənmiş təklifi əvvəlki versiya ilə müqayisədə yalnız cüzi irəliləyiş hesab edir və bunun razılaşma üçün yetərli olmadığını düşünür. Vaşinqton hələlik yalnız İranın dondurulmuş aktivlərinin dörddə birini azad etməyə razılaşıb, Tehran isə bu mövqeyin yenidən nəzərdən keçirilməsini istəyir.

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026




## Prezident “Euronews”a müsahibəsində nələr dedi?

**“WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir. Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir”. Prezidenti İlham Əliyev mayın 18-də “Euronews” televiziyasına müsahibədə belə deyib.**

Dövlət başçısı deyib ki, Azərbaycan şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırıb: “Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik. İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri də inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək. Bununla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Ümumi uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 500 körpüdən 435-i artıq tikilib.

Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin baş planları, “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər”.

**Prezident deyib ki, Yaxın Şərqdə baş verən hadisələr müəyyən dərəcədə hər kəsə təsir edir:** “Bəzilərinin yüksək neft qiymətlərinin faydalı ola biləcəyini düşünə bildiyini söyləyən dövlətimizin başçısı qeyd edib: "Bəli, elədir. Ancaq eyni zamanda neft ehtiyatları ilə zəngin olan ölkələrin bir çoxu öz vəsaitlərini istiqrazlara yatırır, bir çoxu isə səhm bazarlarına investisiya edir. Belə qeyri-sabitlik baş verdiyi vaxt fond bazarları aşağı düşür. Nəticədə biz yüksək neft qiymətlərindən müəyyən gəlir əldə etsək də, bazarlarda investisiyalarımızda itki baş verir".



# Bakı Qlobal Cənub üçün BMT-dən mandat istəyir

## Azərbaycan inkişaf etməkdə olan ölkələrin əsas flaqmanlarından birinə çevrilir

**Azərbaycan özünü Qlobal Cənubun bir hissəsi hesab edir və bu səbəbdən ölkə regionun üzləşdiyi çətinlikləri başa düşür. Bunu Qlobal Cənub QHT Platformasının Baş Assambleyasında Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib. Onun sözlərinə görə, Azərbaycan özü də oxşar çətinliklərlə üzləşdiyindən Qlobal Cənub ölkələrinin problemlərini, o cümlədən müstəmləkəçilik və neokolonializmin nəticələrini yaxşı başa düşür.**

H.Hacıyev xatırladıb ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə neokolonializmə qarşı mübarizə Bakının prioritetlərindən biri olub. O, həmçinin Qlobal Cənubun BMT Təhlükəsizlik Şurası da daxil olmaqla, beynəlxalq təsisatlarda az təmsil olunduğunu bildirib və təşkilatın islahat prosesində bərabər təmsilçiliyin vacibliyini vurğulayıb.

Qeyd edək ki, son illərdə beynəlxalq münasibətlər müstəvisində Qlobal Cənub anlayışı təkcə coğrafi bölgünü deyil, eyni zamanda inkişaf etməkdə olan ölkələrin ortaq maraqlarını, iqtisadi yüksəliş ambisiyalarını və qlobal sistemdə daha böyük rol oynamaq istəklərini ifadə edir. Belə bir reallıqda Azərbaycan da formalaşan platformada özünə öncül yer tutmaqda iddialıdır.

Bu platforma daha çox təşəbbüskar, aktiv və strateji düşünən aktorları önə çıxarır. Azərbaycan isə bu prosesdə passiv müşahidəçi deyil, əksinə, imkanlarını düzgün dəyərləndirərək, fəal iştirakçıya çevrilməkdədir. Azərbaycan bu yeni geosiyasi reallıqda çevik, məqsədyönlü və strateji addımlar atmaqdadır.

“Son dövrlərdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər "Qlobal Cənub" anlayışına da fərqli yanaşmanın formalaşmasına səbəb olub. Artıq bu termin yalnız coğrafi bölgünü ifadə etmir. Söhbət inkişaf etməkdə olan ölkələrin ortaq maraqlar ətrafında birləşməsindən, qlobal idarəetmədə daha fəal rol almaq istəyindən və beynəlxalq institutlarda ədalətli təmsilçilik tələbindən gedir. Azərbaycan da müstəqil siyasi xətti və prinsipial mövqeyi ilə bu proseslərdə diqqət çəkən ölkələr sırasında yer alır.

Bu fikirləri “Yeni Müsavat”a **Milli Məclisin deputatı Vüqar İskəndərov** deyib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət Azərbaycanın beynəlxalq arenadakı mövqeyini əhəmiyyətli şəkildə möhkəmləndirib: “Azərbaycan artıq təkcə regionda deyil, qlobal səviyyədə də mühüm siyasi aktorlardan biri kimi çıxış edir. Xüsusilə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə inkişaf etməkdə olan dövlətlərin maraqlarının müdafiəsi istiqamətində fəal diplomatik fəaliyyət nümayiş etdirilib. Neokolonializmə qarşı mövqe, beynəlxalq hüququn müdafiəsi və selektiv yanaşmalara etiraz Azərbaycanın xarici siyasət prioritetləri sırasında xüsusi yer tutub”.

**Vüqar İskəndərov qeyd edib ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin Qlobal Cənub QHT Platformasının Baş Assambleyasında səsləndirdiyi fikirlər də Azərbaycanın bu məsələyə strateji yanaşmasını ortaya qoyur:** “Qeyd olunduğu kimi, Azərbaycan özünü Qlobal Cənubun tərkib hissəsi hesab edir. Bunun əsas səbəbi isə ölkənin uzun illər beynəlxalq müstəvidə siyasi təzyiqlər və ikili standartlarla qarşılaşmasıdır. Məhz bu təcrübə Azərbaycanın bu gün beynəlxalq münasibətlərdə daha balanslı və ədalətli yanaşmanı müdafiə etməsinə zəmin yaradır”.

**Deputat onu da əlavə edib ki, mövcud beynəlxalq idarəetmə sistemi müasir geosiyasi dəyişikliklərlə tam uzlaşmır. Onun fikrincə, xüsusilə BMT Təhlükəsizlik Şurasında inkişaf etməkdə olan ölkələrin zəif təmsil olunması ciddi narazılıq doğurur:** “Dünyada siyasi və iqtisadi güc balansı dəyişsə də, beynəlxalq institutların fəaliyyət prinsiplərində köhnə yanaşmalar hələ də qalmaqdadır. Bu səbəbdən BMT daxil olmaqla, beynəlxalq təşkilatlarda islahatların aparılması və Qlobal Cənub ölkələrinin qərarvermə prosesində daha geniş iştirakının təmin edilməsi vacib hesab olunur”.

**Vüqar İskəndərov sonda vurğulayıb ki, Azərbaycan artıq beynəlxalq platformalarda müşahidəçi mövqeyi ilə kifayətlənmir:** “Ölkə çevik diplomatik siyasəti, çoxtərəfli əməkdaşlıq təşəbbüsləri və strateji layihələri vasitəsilə Qlobal Cənub daxilində təsir imkanlarını genişləndirir. Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları və siyasi dialoq platformaları sahəsində artan rolu onu bir çox dövlətlər üçün mühüm tərəfdaşa çevirib. Bütün bunlar Azərbaycanın yalnız milli maraqlarını müdafiə etmədiyini, eyni zamanda daha ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verməyə çalışdığını göstərir”.

**Politoloq Züriyə Qarayevanın** sözlərinə görə, Azərbaycan son illər beynəlxalq münasibətlərdə yalnız regional aktor kimi deyil, Qlobal Cənubun maraqlarını ifadə etməyə çalışan fəal ölkə kimi çıxış edir: “Prezidentin köməkçisi Hikmət Hacıyevin Qlobal Cənub QHT Platformasının Baş Assambleyasında səsləndirdiyi fikirlər də bu xəttin davamı kimi qiymətləndirilə bilər. Bakı özünü bu dünyanın bir parçası sayır və bu səbəbdən inkişaf etməkdə olan ölkələrin üzləşdiyi siyasi, iqtisadi və tarixi problemləri daha yaxından anladığını göstərmək istəyir. Xüsusilə müstəmləkəçilik və neokolonializm mövzularının önə çəkilməsi Azərbaycanın bu platformada sadəcə iştirakçı yox, gündəm müəyyən edən tərəf olmaq niyyətindən xəbər verir. Bu yanaşmanın əsas siyasi məqamı isə BMT və digər beynəlxalq institutlarda təmsilçilik məsələsidir. Qlobal Cənub ölkələri uzun illərdir ki, beynəlxalq qərarların qəbulunda bərabər söz sahibi olmadıqlarını bildirirlər. Xüsusilə BMT Təhlükəsizlik Şurası kimi mühüm strukturlarda mövcud təmsilçilik balansı bugünkü geosiyasi reallıqları tam əks etdirmir. Azərbaycan da bu boşluğu qabardaraq Qlobal Cənubun daha ədalətli, daha bərabər və daha təsirli şəkildə təmsil olunmasını müdafiə edir. Bu, Bakının beynəlxalq sistemdə islahat çağırışlarını dəstəkləməklə yanaşı, öz diplomatik çəkisini artırmaq strategiyasına da uyğundur. Əslində Azərbaycan üçün Qlobal Cənub platforması həm siyasi, həm də diplomatik imkan meydanıdır. Qoşulmama Hərəkatına sədrliyi dövründə Bakı artıq göstərdi ki, müxtəlif regionlardan olan ölkələri ortaq mövzular ətrafında bir araya gətirə bilir. İndi isə Qlobal Cənub xətti bu təcrübənin yeni mərhələsi kimi görünür. Azərbaycan bu prosesdə passiv müşahidəçi olmaq istəmir, əksinə, təşəbbüs göstərən, mövzu açan və beynəlxalq gündəmdə öz yerini möhkəmləndirən aktor kimi çıxış edir. Bu baxımdan Bakının mesajı aydındır: qlobal sistem dəyişirsə, həmin dəyişiklikdə Qlobal Cənubun da, Azərbaycanın da səsi daha güclü eşidilməlidir”.

**Cavanşir ABBASLI, “Yeni Müsavat”**



# Masazıra "göydən düşən oğlan" - Dambrauskas kimdir?

## Azərbaycanda bir mövsümdə iki kubok qazanan ilk legioner məşqçinin uğura aparan yolu satıcılıqdan tutmuş narkomanlar məhəlləsinin komandasına qədər uzanır...

**Litvalı idman mütəxəssisləri, nə hikmətdirsə, həmişə Azərbaycan üçün uğurlu olur. Biz əfsanəvi basketbolçu Rimas Kurtinaytsi xüsusi misal göstərə bilərik. Basketbol üzrə olimpiya və Avropa çempionu, "Sabah" klubunun baş məşqçisi Kurtinaytsın Azərbaycanla bağlılığı hələ əsrin əvvəllərindən var.**

### Kurtinaytsdan Dambrauskasa qədər

Tanınmış basketbolçu Rimas Kurtunayts son illər "Sabah" basketbol klubunun baş məşqçi olub. Amma Dambrauskasın "ayağı" ona düşmədi, ötən həftəsonu mütəxəssislə müqavilə qarşılıqlı razılıq əsasında başa çatdı. Qeyd edək ki, "Sabah" Azərbaycan Basketbol Liqasında son 4 mövsümün qalibi olub.

İndi daha bir litvalı ölkəmizin idman həyatında sözün əsl mənasında rəqiblərinə "meydan oxumaqda", yüksək titullar qazanmaqdadır. O, Abşeron rayonunun Masazır qəsəbəsini təmsil edən "Sabah" klubuna iki qızıl qazandırdı - ölkə çempionluğunu və ölkə kubokunu. Bununla da Valdas Dambrauskas Azərbaycanda "Qızıl dubl" müəllifi olan ilk legioner mütəxəssisdir.

Əvvəlki 11 belə uğura yerli baş məşqçilər imza atıb. Qurban Qurbanov 5 (2014/15, 2015/16, 2016/17, 2021/22, 2023/24), Kazbek Tuayev (1995/96, 2003/04) və Ağasəlim Mircavadov (1993, 2006/07) hərəsi 2, Mehman Allahverdiyev (1997/98) və Böyükağa Hacıyev (2012/13) hərəsi bir dəfə rəhbərlik etdiyi komanda ilə buna nail olub. Beləliklə, 6-cı mütəxəssis litvalı Dambrauskas oldu. "Sabah" klubu 2025-ci ildə Dambrauskasla 3 illik müqavilə bağlayıb. Elə litvalı baş məşqçinin Azərbaycanda debütü "Qızıl dubl"la yadda qaldı. Dambrauskas baş məşqçi karyerası ərzində Litvanın "Ekranas" (2013-2014), "Jalgiris" (2014-2017), Latviyanın RFS (2017-2020), Xorvatiyanın "Qoritsa" (2020-2021), "Hayduk" (2021-2022), Bolqarıstanın "Ludoqorets" (2021), Yunanıstanın "OFİ Krete" (2022-2023), Kiprin "Omoniya" (2024) və Macarıstanın "Dyoşdyor" (2025) klublarında çalışıb.

### "6" rəqəminin sirri, kubokların "kral"ı

O, baş məşqçi kimi bir dəfə Bolqarıstan çempionu (2020/21), iki dəfə Litva çempionu (2014/15, 2015/16), bir dəfə Latviya kubokunun (2018/19), üç dəfə Litva kubokunun (2014/15, 2015/16, 2016/17), bir dəfə Xorvatiya kubokunun (2021/22), iki dəfə Litva Superkubokunun (2015/16, 2016/17), bir dəfə isə Bolqarıstan Superkubokunun (2021/22) qalibi olub. Bu da rəqəmlərin sirridir ki, Dambrauskas 6-cı kuboku Azərbaycanda qazanıb. Yəni həm ölkəmizin futbol tarixində "Qızıl dubl" edən altıncı baş məşqçidir, həm də "Sabah"ın "Zirə" üzərində qələbəsi ilə 6-cı kuboku qazanan mütəxəssisdir. Göründüyü kimi, "66" heç də şeytan rəqəmi deyil...

### Poçtalyon, rəngsaz, narkomanlar məhəlləsi...

Dambrauskas 1977-ci ildə Litvanın Pakruoyis şəhərində dünyaya göz açıb. Onun futbolçu karyerası isə sadəcə, həvəskar səviyyədə olub. Litva 3-cü liqasında meydana çıxan çalışdırıcı daha sonra universitetə daxil olur. Dambrauskasın "Sabah"a gəlişi təsadüfi deyil. Onun intellektual biri olması burada mühüm rol oynayıb. Baş məşqçi 2002-ci ildə Litvanın LNK televiziyasında yayımlanan "Altı sıfır - Bir milyon" viktorina şousunda iştirak edib və bu yarışdan 1 160 avro qazanıb. O, ən çox gündəlik qəzetin hansı ölkədə çap olunduğu (doğru cavab: Yaponiya) sualına cavab verə bilməyərək yarışmanı dayandırıb. Ardınca qazandığı pulla İngiltərəyə məşqçilik təhsili almağa gedib. Əvvəlcə poçtalyon, satıcı və rəngsaz kimi müxtəlif işlərdə çalışıb. Sonra Londonun narkotik satıcıları ilə dolu ən kasıb məhəlləsinin komandası - "Kingsbury London Tigers"ə rəhbərlik etməli olub. Daha sonra "Fulhem", "Mançester Yunayted" və "Brentford" kimi köklü klubların akademiyalarında təhsil alıb. Sonrası da məlumdur - onun karyerasında yüksəliş dövrü başlayır və yuxarıda sıraladığımız klublarda çalışıb.

**Dambrauskas müsahibələrinin birində daim yüksək hədəflər altında işləməyə öyrəşdiyini bildirib:** "Komandalarımı adətən birinci yerdə və ya ona yaxın mövqedə görməyə öyrəşmişəm. Bundan başqa, hər hansı hədəf mənim üçün qəbuledilməzdir. Böyük təzyiq altında yüksək hədəflər uğrunda mübarizə aparmaq mənim üçün bir imtiyazdır. Ən pisi heç nə uğrunda oynamaq, turnir cədvəlinin ortasında qalmaqdır".

### Valdasın "Sabah"ı necə açılacaq?

İdman yazarları Dambrauskasın və "Sabah"ın uğurunun sirri olmadığını deyirlər. Sadəcə, saat kimi işləyən mexanizm, sistemli oyun və fərdlər üzərində qurulmayan komanda. Klubda xüsusi adı qeyd olunacaq favorit də yoxdur. Bu, qismən "Mançester Siti"nin oyun sisteminə oxşayır. Transfer siyasəti də bu uğurun əsas nümunəsidir. Masazır təmsilçisi illərlə ad üçün transfer edən klublardan fərqli olaraq, sistemə uyğun futbolçular seçdi. Komandaya gələn oyunçular tanınmış adlar yox, Dambrauskasın oyun fəlsəfəsinə uyğun futbolçular oldu.

İndi litvalı mütəxəssis üçün daha mürəkkəb bir sınaq dövrü gəlir. O, neçə illik estafeti "Qarabağ"dan alaraq Azərbaycanı Çempionlar Liqasında təmsil etməlidir. Bu, olduqca böyük məsuliyyətdir. Əvvəla, bu, "Sabah" üçün ÇL-də bir debüt olacaq. İkincisi, potensial rəqiblərinə baxanda, Masazır klubunun bəlkə də maksimum ilk turu keçəcəyi gözlənilir. Artıq Azərbaycan çempionunun potensial rəqibi olacaq 14 komandadan 10-u məlumdur. Bunlar "səpələnmişlər" səbətinə düşən "Şemrok Rovers" (İrlandiya), "KuPS" (Finlandiya), "Drita" (Kosovo), "Linkoln" (Cəbəllüttariq), "Boraç" (Bosniya və Herseqovina), "Vikinqur" (İslandiya), "Kayrat" (Qazaxıstan), "Riqa" (Latviya), "Klaksvik" (Farer adaları) və "Flora"dır (Estoniya). Daha 4 rəqib isə hələlik qeyri-müəyyəndir. Üstəlik, Dambrauskasın digər ölkələrin klublarında da çempionluğu olsa da, ÇL-də hər hansı ciddi nəticəsi olmayıb. Nəzərə alaq ki, Ağdam klubu ÇL-də son çıxışı ilə tarix yazıb, Avropanın nəhəng klubları ilə döyüşüb. Bu baxımdan da "Sabah" və onun baş məşqçisi üçün ilk sınaq çətin olacaq.

### "Zirə"yə qənim kəsilən adam

Maraqlıdır ki, Valdas Dambrauskas vaxtilə Azərbaycan təmsilçilərindən "Zirə"yə rəqib olub. Belə ki, 2024-cü ilin yayında onun çalışdırdığı Kiprin "Omoniya" komandası Konfrans Liqasının pley-off mərhələsində Bakının "Zirə" klubu ilə qarşılaşıb və turu adlayan tərəf olub. Bu dəfə isə "Sabah"ın baş məşqçisi kimi Azərbaycan kubokunun finalında Rəşad Sadıqovun "Zirə"sini məğlub edərək rəqibin avrokubok şanslarını riskə atdı. Bu, təbii ki, təsadüfdür. Amma Dambrauskas faktiki iki dəfə "Zirə"yə ciddi zərbə vura bilib. Bununla belə, idman yazarlarına görə yaxşı ki, ara-sıra ölkəmizə belə səviyyəli əcnəbi legioner məşqçilər də gətirilir. Və gətirilirsə, elə məşqçili-futbolçulu məhz belələri gətirilməlidir, daha qabiliyyətsiz yığını deyil...

Elə bu baxımdan, Kurban Berdiyevi də qeyd etmək olar. O da əcnəbi baş məşqçi kimi "Turan Tovuz"u 32 il sonra avrokuboklara çıxardı. Elə ukraynalı Yuri Vernidub da "Neftçi"ni Konfrans Liqasına çıxardı. Yəni builki Azərbaycan Premyer Liqasında ilk dördlüyü tutan klublardan üçünün baş məşqçisi əcnəbidir. Ancaq onların heç biri azərbaycanlı Qurbanın uğurlarını nəinki təkrarlamayıblar, heç ona yaxınlaşmayıblar da. Bununla belə, indi gözlər "Sabah"da və Dambrauskasda olacaq. Elə onun həmyerlisi, "Sabah"ın basketbol üzrə baş məşqçisi Kurtinaytisin də bu il az məsuliyyəti yoxdur. Görünür, Azərbaycanda 2025-2026 litvalıların mövsümü imiş.

### 54 kitab oxuyub - bu adamdan qorxmağa dəyər!

O ki qaldı Dambrauskas, idman yazarları qeyd edirlər ki, il ərzində 21285 səhifəlik 54 kitab oxuyub, hər günə ortalama 58 səhifə düşür. Onun oxuduğu kitablardan ən naziyi 176, ən qalını isə 856 səhifəlikdir. Özü də mütəxəssisin maraq dairəsi genişdir. Onun oxuduğu kitablar üç qrupa ayrılır: bədii, elmi-populyar və idman ədəbiyyatı. 54 kitabın hər birinin adını çəkməyə ehtiyac görmürük. Ancaq idman mövzusunda kitablardan bəziləri çox maraqlıdır. Dambrauskas futbol adamlarından Karlo Ançelotti, Sven-Yoran Eriksson və Qaret Sautqeytin avtobioqrafik kitablarını da oxuyub. Daha bunların hansınasa oxşamaq istəyib-istəmədiyini bilmirik. Onun həyatını izlədiyi, öyrəndiyi idman adamları sırasında Emma Heyz, Skotti Pippen, Xabi Alonso, Patrik Muratoğlu və Polqar bacıları da var. "Sabah"ın baş məşqçisi bu qədər işin arasında 54 kitab oxumağa da imkan tapıbsa, gerçəkdən bu adamdan qorxmağa dəyər!

Ancaq onun yaxşı işi ilə yanaşı həm də Azərbaycanın bölgələrini tanımağa həvəsli olması müsbət emosiyalar yaradır. Bir müddət əvvəl onun ailə üzvləri ilə birgə Qusara və Qubaya - Xınalığa getməsi qiymətləndirilməli olan məqamdır. Amma "Qarabağ"a qalib gələn litvalı baş məşqçi bir gün işğalçı ermənini məğlub etdiyimiz Qarabağa - Şuşaya da getsin...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026



# Elbir kənd sakini Məmmədov

Zamin HACI
zaminhaci@gmail.com

**Dünyanın az qala hər yerində olduğu kimi, bizdə də beynəlxalq təşkilatların, qurumların fəaliyyəti daim tənqid atəşi altındadır. Məsələn, ATƏT-i, Avropa Şurasını, BMT-ni ölkəmizdə ancaq tənbəllər pislәmir. Eyni zamanda vaxtaşırı bu təşkilatların tədbirlərinə ev sahibliyi edirik.**

Səmimi deyilikmi? Yəqin ki. Ancaq səmimiliyə kim qiymət verir? Bizim hökumət, maşallah, planetin dilini tapıb. Bilirlər ki, "hamının balası var", alınıb-satılmayan dəyər-məyər demək olar qalmamışdır. Yoxsa hökumətimiz səndən-məndən qabaq çox gözəl anlayır ki, BMT nə havaya dərman edəndir, nə yetim-yesir üçün ev tikəcək (burada "bu tədbirlər kimə lazımdır" temasına deyinən zəhmətkeşlərimiz qarşısında hökumətə pulsuz vəkillik elədim). BMT-yə rəhbərlik edən zırpı dövlətlərin dünyanın arixtekturasına vurduğu ziyan xeyirdən çoxdur. Rusiya və ABŞ-nin uçurtduğu şəhər sayı tikdiyindən artıqdır.

Sadəcə, hərənin öz qiyməti vardır. Bu temada bir ingilis pritçasının yeridir, bilmirəm nə dərəcədə olmuş əhvalatdır. Deyir bir gün Bernard Şou qəzetdə yazır ki, bütün ingilis arvadlar fahişədir. Xalq əsəbləşir, kraliça bunu saraya çağırıb deyir o nədir yazmısan, mən də özümə görə bir ingilis arvadam, məsələn, sənin "məntiqinlə" mənə nə qədər verərsən? Şou deyir, ülyahəzrət (əlahəzrət-in zənən formasıdır - Z.H.), 1000 funt. Kraliça təəccüblənir: "O qədər az?" Şou deyir: "Bax, ülyahəzrət, artıq qiymət danışmağa başlamışıq".

Təbii, bu bir zarafat olmalıdır, sözümün canı odur ki, səmimiyyət yaxşı şeydir, amma necə deyərlər, "bir gün sizdə, bir gün bizdə". Çünki səmimiyyətlə qonaqlıq təxminən eyni məqsədlərə xidmət edir.

Bu yaxında Milli Məclis Qubadakı 3 kəndin adını dəyişdirmək haqqında qərar qəbul etdi. Vladimirovka oldu Elbir, Alekseyevka Çinarlı, Timiryazev isə Bəhrəli. Necə deyərlər, bəh-bəh... Adamın milli duyğulardan qanı qaynayır, az qalırsan qaçıb gedib Milli Məclisin binasının başına fırlanıb deputatlara nəzir verəsən.

Ancaq gəlin səmimi söhbət edək, kənddə yaşayan adamın soyadı Mamedov, Əliyev, Həsənova-filandırsa, o kəndin adını Elbir yox, lap Gülbir qoy - dönüb milli olası deyil. Bəhrəli kənd sakininin soyadı "li" şəkilçisi ilə bitməlidir. Əks halda, Timiryazevi dəyişməyin heç bir mənası yoxdur.

Bir azdan 40 il olacaq ki, biz rus istilasından qurtulmuşuq, ancaq rus soyadlarından əl çəkmirik. Özünü türk, azərbaycanlı, lap elə talış, ləzgi, avar və sairə sayan insan "ov, yev" familiyasını necə daşıyır, hansı mənada daşıyır?

Əlbəttə, belə məqamda bəziləri deyir mən öyrəşmişəm, bu soyadla məni tanıyırlar və sairə. Gülünc arqumentdir, müzakirəsi də boşdur - hətta dünya şöhrətli, milyarder şirkətlər görürsən rebrendinq edir, tanınma nişanına əl gəzdirir.

İkinci və çoxsaylı qrup guya sənədləşmə işlərindəki çətinlikləri bəhanə edir: "Bütün şəxsi sənədlər yenilənməlidir". Ancaq ürək istəsə bunları aşmaq çətin deyil. Rus imperiyasından xilas olmaq üçün yüzlərlə qurban verən xalq rus soyadlarından qurtulmaq üçün ərinir, eləmi?

Hesab edək, bu mövqedə direşənlər haqlıdırlar. Bəs bu sənədləşmə çətinliklərini kim həll etməlidir? Hökumət. Dövlət. Bunun başqa yolu yoxdur. Bir qərarla hamını latın əlifbasına necə öyrəşdirdilər? İndi soyad inqilabımız üçün də yuxarıdan qəti, kəskin qərar verilməlidir. Soyadını millilәşdirənlərdən heç bir rüsum alınmadan bütün prosedurlar "bir pəncərə" sistemi ilə həll olunmalıdır. Lazım gəlsə, müvəqqəti, ayrıca bir idarə də yaradıla bilər.

Sən öz milli geyimində dünyanı dolaşan Svazilend kralı Msvati müəllimə pis-pis gülәndə hərdən gərək dönüb özünün soyadına baxasan və fikirləşəsən ki, mənim İvandan, Nataşadan fərqim nədir...

# İrəvanın 28 may paradı Moskvaya mesajdır

## Deputat və hərbi ekspertdən ilginc reaksiyalar

**Moskva ilə gərginləşən münasibətlər fonunda Ermənistan hökumətinin Respublika meydanında hərbi parada hazırlaşması xüsusi diqqət çəkir. Xüsusilə revanşistlərə yaxın mediada ən müxtəlif təhlillər verilir. "Azərbaycan buna etiraz etməyib. Baxmayaraq ki, nümayiş etdiriləri silahları özünə qarşı yönəlmiş kimi qəbul etdiyini və bunu erməni revanşizminin təzahürü hesab etdiyini bəyan edə bilərdi. Lakin Bakı səssiz qalır, görünür, bu qoşunların, silahların və texnikanın Azərbaycanla heç bir əlaqəsi olmadığına əmindir. Onda sual yaranır: bu parad niyə keçirilir və kimə qarşı yönəlib?", - deyə Hraparak.am yazır.**



**Nəşr 28 may paradının bir neçə mesajı olduğunu yazır**: "Bir nəzəriyyə görə, parad yalnız daxili siyasi, seçkiqabağı məqsədləri - hökumətin öz gücünün ictimaiyyətə nümayişini hədəfləyir. Başqa sözlə, hədəf xarici düşmən deyil, daxili müxalifət və mövcud hökumətə qarşı səs vermək niyyətində olan vətəndaşların bir hissəsidir. Paşinyan öz ictimaiyyətinə silah və qoşun nümayiş etdirməklə, sanki deyir: "Baxın bizə qarşı olsanız, nə ilə qarşılaşarsınız..."

Erməni nəşri daha sonra yazır ki, əslində bu parad Rusiyaya və Ermənistandakı Rusiya hərbi mövcudluğuna qarşı yönəlib: "Görünür, Paşinyan Moskvaya hökumətinin göründüyü qədər müdafiəsiz olmadığını və lazım gələrsə, öz silahlı qüvvələrinə güvənə biləcəyini nümayiş etdirməyə çalışır".

"Stratfor" beyin mərkəzi isə hesab edir ki, seçkilər ərəfəsində Rusiya Paşinyana qarşı informasiya təzyiqlərini artıracaq, lakin münasibətləri açıq şəkildə gərginləşdirməkdən çəkinəcək. Analitik mərkəz Kremlin birbaşa sərt qarşıdurmaya getmək istəmədiyini qeyd edir. Çünki bu, Ermənistanda Rusiyaya simpatiya ilə yanaşan qüvvələr arasında əks-effekt yarada bilər. Maraqlıdır ki, internetin Ermənistan seqmentində maskalı və silahlı şəxslərin Paşinyandan qisas almaq, onu məhv və yox etməklə hədələdiklərini əks etdirən videokadrlar yayılıb.

Fransadan alınan SEZAR özüyeriyən artilleriya sistemlərinin də nümayiş etdiriləcəyi hərbi paradın indiki durumda keçirilməsi sülh bəyanatları ilə üst-üstə düşmür. Paşinyanın silahları meydana çıxarmaqda əsl məqsədi nədir? Bəs, bu durumda Moskvanın planı nədən ibarətdir? "Stratfor"un təhlilini necə dəyərləndirmək olar?

"Stratfor" un təhlili göstərir ki, Paşinyan hakimiyyəti qarşıdakı seçkilər və Moskva ilə gərgin münasibətlər fonunda ilk növbədə daxili auditoriyaya, eyni zamanda Rusiyaya siyasi mesaj verməyə çalışır". **Deputat Rizvan Nəbiyev** bunu "Yeni Müsavat"a açıqlamasında deyib. O bildirib ki, hərbi parad ilk növbədə hökumətin güc nümayişi və təhlükəsizlik gündəmini nəzarətdə saxladığını göstərmək məqsədi daşıyır: "Paşinyan hökuməti seçkiqabağı göstərmək istəyir ki, Köçəryan və Sərkisyan hökumətlərindən fərqli olaraq, real ordu yaradır, silah təchizatı mənbələrini diversifikasiya edir. Xüsusilə son illərdə Ermənistanın silahlanmaya böyük maliyyə vəsaiti ayırması, Fransa, Hindistan və digər ölkələrdən silah alması fonunda parad həm də ictimaiyyət qarşısında bu xərclərin əsaslandırılması kimi təqdim olunur.

Həm də məqsəd 44 günlük müharibədə darmadağın edilən Ermənistan ordusuna cəmiyyətin mənəvi etimadını bərpa etmək və bununla seçiciləri mobilizasiya etmək niyyəti də ortadadır".

**R.Nəbiyevin fikrincə, paradın digər mühüm mesajı Rusiyaya yönəlib:** "İrəvan bununla Moskvanın siyasi və informasiya təzyiqlərinə baxmayaraq, öz təhlükəsizlik imkanlarını və müstəqil qərarvermə iddiasını nümayiş etdirməyə çalışır. Azərbaycan bu paradı daha çox Ermənistanın daxili siyasi və geosiyasi balans axtarışının elementi hesab edir. Moskva da həlelik açıq qarşıdurmadan yayınmağa çalışır. Çünki Kreml anlayır ki, sərt təzyiq Ermənistanda anti-Rusiya meyllərini daha da gücləndirə bilər. Bu baxımdan, "Stratfor"un qiymətləndirməsi kifayət qədər realist görünür: yaxın dövrdə Rusiya-Ermənistan münasibətlərində informasiya və siyasi təzyiqlər artsa da, tərəflərin açıq qarşıdurmadan yayınmağa çalışacağı ehtimalı daha yüksəkdir".

**Hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov** isə bildirdi ki, Ermənistanın 28 mayda keçirəcəyi hərbi parad ilk növbədə seçkiyə hesablanıb: "İkincisi, əlbəttə ki, 102-ci bazaya mesajdır. Çünki son vaxtlar xüsusən Rusiya cəbhəsindən, Kremldən Paşinyana çox böyük hədələr səsləndirilir".

**Polkovnikin proqnozuna görə, bu hərbi paraddan sonra artıq Paşinyan rahat şəkildə bəyan edə bilər ki, biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə yollarımızı ayırırıq:** "Yəni indiyə qədər KTMT yalnız Ermənistana sözdə dəstək olurdu, amma bu paradda nümayiş etdiriləcək xarici silahlar, Qərb silahları Paşinyana müəyyən imkanlar yaradacaq. Yəni o bəyan eləsin ki, yeni müttəfiqlərimiz bizə sözdə deyil, işdə kömək edirlər. Orada Hindistan da var, Yunanıstan da, Çin də, sonra digər ölkələr də var. Bir sözlə, mən hesab edirəm ki, əlbəttə ki, seçkilər ərəfəsində Ermənistan hakimiyyətinə çox güclü təzyiqlər var. İyunun yekunu yaxınlaşdıqca Paşinyana qarşı hədələr artır. Elə o hədələrin biri 18 mayda Paşinyana qarşı bəzi silahlılar tərəfindən təhdid formasında özünü göstərdi. Əlbəttə, Ermənistanda da çox gözəl bilirlər ki, bu, Kremlin tərəfindən təşkil olunmuş bir addımdır, hərəkətdir və Paşinyan da bunu heç bir halda həzm etməyəcək. Paşinyan özünə son dərəcə arxayındır, sadəcə, bir qədər diqqətli olmalıdır ki, bu arada ona qarşı hansısa silahlı təxribat və yaxud da sui-qəsd həyata keçirilməsin. Çünki Rusiyan anlayır ki, bu seçkidə əgər Paşinyan yenidən üstünlük qazanacaqsa, artıq Rusiya yavaş-yavaş 102-ci hərbi bazanın məsələsinin tezkliklə, yəni 2044-cü ildən daha tez gündəmə gələcək. Ona görə də Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodinin, bundan əvvəl Overçukun, ondan əvvəl Mixail Qaluzinin, elə Putinlə görüşdə də Rusiya prezidentinin özünün səsləndirdiyi bəzi fikirlər Paşinyana psixoloji təzyiq idi. Amma Paşinyan öz mövqeyində açıqdır, qətidir. Ona görə mən hesab edirəm ki, Paşinyan bu tempdə, bu istiqamətdə davam etsə, rahat şəkildə seçkini qazana bilər". **Ü.Cəfərov "Stratfor" beyin mərkəzinin seçkilər ərəfəsində Rusiyanın Paşinyana qarşı təkcə informasiya təzyiqləri deyil, digər təzyiqləri də edəcəyi ilə bağlı məlumatına inandığını bildirdi:** "Onu da bilirəm ki, Rusiya son anda vəziyyəti gərginləşdirmək üçün var gücü ilə çalışmağa başlayacaq. Artıq biz bunu, yəni Moskvanın planının nədən ibarət olduğunu görürük. Amma Paşinyan da nə qədər özü üçün ehtiyatlı davranır və yəqin ki, o, sonda istədiyinə nail olacaq. Mənim yanaşmam ondan ibarətdir ki, Paşinyana çox güclü dəstək var. Ermənistan xalqı da artıq başa düşür ki, əvvəlki səhnə olmayacaq. Yəni Rusiya Cənubi Qafqazda, konkret olaraq Ermənistanda dominantlıq edirdi. İndi isə artıq Qərbin maliyyə yardımları, sonra Qərbin ordunu gücləndirmək səyləri olacaq, necə ki, var. Mən bundan zərrə qədər də narahat deyiləm, çünki Azərbaycana çatmaq üçün Ermənistana hələ xeyli müddət lazımdır. Amma o silahların Azərbaycana və ya Türkiyəyə yönəlməsini də mən düşünmürəm. Artıq həm Türkiyə ilə, həm Azərbaycanla tamamilə fərqli siyasi mənzərə olacaq. Artıq Ermənistan da başa düşür ki, indiyə qədər onlardan alət kimi istifadə ediblər və istifadə etdikləri kimi də sonra kənara atıblar".

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

**Türk dünyasının mənəvi mərkəzi sayılan Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi sammiti təşkilatın gələcək istiqamətlərini müəyyən edən mühüm mərhələ kimi yadda qaldı. Azərbaycanın sədrliyinin Türkiyəyə ötürülməsi ilə yanaşı, 44 maddədən ibarət Türkistan Bəyannaməsinin imzalanması əməkdaşlığın artıq klassik siyasi çərçivədən çıxaraq texnologiya, innovasiya və rəqəmsal transformasiya kimi strateji sahələrə yönəldiyini göstərdi. Azərbaycanın dövlət başçısı İlham Əliyevin çıxışında səsləndirdiyi “Türk dünyası XXI əsrin geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir” mesajı əslində bu prosesin ideoloji əsasını təşkil edir. Bu yanaşma təkcə mədəni və tarixi bağlılıqlara deyil, həm də ortaq iqtisadi və texnoloji gələcək vizyonuna söykənir.**



# Türk dövlətlərinin “TDT+” yaratmaq iddiası

## Bu təşkilata üzv olmayan böyük güc mərkəzlərinin də “Turan” platformasına cəlb edilməsi hədəflənib

Diqqətçəkən məqamlardan biri isə sammitə Rusiyanın, xüsusilə “Nezavisimaya qazeta” kimi nüfuzlu media orqanlarının geniş yer ayırmasıdır. Bu, Rusiyanın Türk Dövlətləri Təşkilatının artan rolunu diqqətlə izlədiyini göstərir. Nəşrin qeyd etdiyi kimi, TDT artıq sadəcə regional əməkdaşlıq platforması deyil, eyni zamanda Mərkəzi Asiya ölkələrinin beynəlxalq subyektliyini gücləndirən yeni geosiyasi faktor kimi çıxış edir. Rusiya nəşrinin təhlilində deyilirdi ki, dəyişən dünya nizamı şəraitində TDT yalnız türk əməkdaşlığı üçün yeni istiqamətlər müəyyənləşdirmir, həm də Mərkəzi Asiyanın subyektliyini gücləndirmək məqsədi daşıyır. İddia olunur ki, təşkilata digər ölkələr də maraq göstərir və onlarla dialoq üçün “TDT+” adlı yeni format yaradılır. Maraqlı tərəflər arasında ABŞ, Yaponiya, İsrail, Çin, Böyük Britaniya və Ukrayna da var.

“TDT+” formatının gündəmə gətirilməsi əslində TDT-nin yeni mərhələyə keçdiyini göstərən ən vacib siqnallardan biridir. Bu yanaşma təşkilatın yalnız üzv dövlətlərlə məhdudlaşmaq istəmədiyini, əksinə, daha geniş geosiyasi və iqtisadi əməkdaşlıq platformasına çevrilmək niyyətində olduğunu ortaya qoyur.

“TDT+” nə deməkdir? Bu, təşkilata üzv olmayan, lakin onunla əməkdaşlıqda maraqlı olan ölkələrlə dialoq və tərəfdaşlıq mexanizminin yaradılmasıdır. Yəni ABŞ, Yaponiya, İsrail, Çin, Böyük Britaniya və Ukrayna kimi güclərlə konkret sahələr üzrə - xüsusilə texnologiya, logistika, enerji və rəqəmsal inkişaf istiqamətlərində əməkdaşlıq imkanları genişlənir. Bu model bir növ “açıq platforma” prinsipinə əsaslanır. Yəni təşkilat qapalı blok kimi deyil, çevik və çoxtərəfli əməkdaşlıq şəbəkəsi kimi fəaliyyət göstərmək istəyir. Bu isə onun beynəlxalq çəkisini artırır və Mərkəzi Asiya ilə Türk dünyasını qlobal iqtisadi sistemə daha sıx inteqrasiya edir.

Eyni zamanda “TDT+” təşəbbüsü böyük güclər arasında balans siyasətinin də bir elementidir. Bu format vasitəsilə təşkilat həm Qərb, həm də Şərq aktorları ilə paralel əlaqələr quraraq öz strateji müstəqilliyini qorumağa çalışır. Qısaca desək, “TDT+” sadəcə yeni termin deyil - bu, Türk Dövlətləri Təşkilatının regional birlikdən qlobal oyunçuya çevrilmək ambisiyasının praktiki alətidir. Türküstan sammiti göstərdi ki, Türk Dövlətləri Təşkilatı artıq yalnız ortaq kimlik platforması deyil - o, yeni dünya nizamında söz sahibi olmağa çalışan, iqtisadi və texnoloji gücünü artırmağa çalışan real geosiyasi mərkəzə çevrilmək yolundadır.

Qeyd etmək lazımdır ki, Türk dövlətləri üçün bu gün əldə edilən birliyi təmin etmək o qədər də asan olmayıb. SSRİ dağıldıqdan sonra bir-biri ilə əlaqələr quran türk dövlətləri ilk dəfə Azərbaycanın təşəbbüsü ilə 2009-cu ildə Naxçıvan şəhərində imzalanan bir sazişlə Türk Şurasını təsis ediblər. Türk dünyasının ortaq iradəsinin simvoluna çevrilən bu şura gələcək böyük bir ailənin təməl daşı olub. Türk dövlətləri gücləndikcə və aradakı əlaqələr dərinləşdikcə bu platforma qlobal siyasi güc mərkəzinə çevrilməyə doğru addımlayıb. 2021-ci ildə İstanbul şəhərində keçirilən sammitdə şuranın əsasında “Türk Dövlətləri Təşkilatı”nın (TDT) yaradılması tarixi bir hadisə idi.

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Başirov**un sözlərinə görə, “TDT+” genişlənmək hədəfini nəzərdə tutan ideyadır. Onun fikrincə, bu təşəbbüs qeyri-türk dövlətlərini, qlobal güc mərkəzlərini də bu platformaya cəlb etmək niyyəti güdür. Siyasi şərhçi hesab edir ki, ABŞ, Yaponiya, İsrail, Çin, Böyük Britaniya dünyanın texnoloji inkişafına görə "top-5"likdə olan dövlətlərdir: "Onlarla bu sahədə əməkdaşlığı inkişaf etdirmək sözsüz ki, üzv dövlətlərin maraqlarına uyğundur. Eyni zamanda təşkilatın bir qəlibə sığmadığını nümayiş etdirir. Yeni genişlənmə planı var və daha çox elmi-texniki sahəni nəzərdə tutur. Əslində “Turan” ideyasının reallaşması yalnız dövlət başçılarının bir araya gəlməsi ilə məhdudlaşmamalıdır. Burada siyasi-iqtisadi, hərbi, eləcə də digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi vacibdir. Çünki TDT hərbi blok və ya siyasi ittifaq deyil, əməkdaşlıq platformasıdır. O halda, əlaqələri genişləndirməsində “TDT+” ideyası əngəl olmamalıdır".

**X.Başirovun sözlərinə görə, Türk dünyası artıq nostalji olmaqdan çıxıb:** “Hazırda biz bu təşkilatı iqtisadi marşrut, enerji təhlükəsizliyi sahələrində əməkdaşlıq edən platforma kimi görməkdəyik. Türküstan Zirvəsi də bu siyasi iradəni nümayiş etdirdi. Prezident İlham Əliyevin çıxışında hiss olunan əsas xətt də ondan ibarət idi ki, TDT "emosional yaxınlıq məkanı" deyil, geosiyasi bir aktora çevrilməkdədir. Türk dünyası artıq özünü gələcəyin layihəsi kimi təsdiqləmək istəyir. Məncə, bu potensial və əlverişli geosiyasi şərait də var. Bu gün Bakı, Ankara, Astana, Daşkənd, Bişkek arasında əlaqələr diplomatik protokol münasibətlərindən daha üstündür. Bunlar yeni Avrasiya tarazlığının formalaşmasında önəmli rol oynayan siyasi koordinasiya modelidir. Nəzərə almaq lazımdır ki, TDT Xəzərdən Aralıq dənizinə uzanan enerji xəttidir. Həmçinin Çindən Avropaya uzanan Orta dəhlizin əsas dayağıdır. Bu mənada “TDT+” ideyası böyük siyasi-iqtisadi bir xəritə hesab oluna bilər”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Öcalana “xüsusi status” təklifinə Bakıdan reaksiya

## Politoloq: “Bu, kifayət qədər riskli bir məsələdir”

**Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı “Terrorsuz Türkiyə” prosesində yeni addıma və buna uyğun yol xəritəsinə ehtiyac olduğunu bildirib.**



O, Abdullah Öcalanın ləğv edilmiş PKK terror təşkilatının qurucu liderliyi əvəzinə təşkilat üzərində təsirini davam etdirə biləcəyi struktur qurulmalı olduğunu deyib.

“Terror təşkilatlarının ləğvi prosesində liderlik mexanizmində çoxsəslilik təşkilatın ləğvindən sonra başqa liderlərin ortaya çıxmasına və təşkilatın başqa adlarla yenidən təşkilatlanmasına səbəb ola bilər. Bu baxımdan, terrorun ləğvi prosesində tərəfin açıq və dəqiq şəkildə müəyyən edilməsi vacibdir. Öcalanın həbsi qüvvədə qalmaq şərtilə sosial statusla təmin olunması ləğv edilmiş PKK və komponentlərinin təşkilati fəaliyyətlərinin və ya tərk-silah prosesinin daha şəffaf şəkildə həyata keçirilməsini mümkün edə bilər. "Sülh Prosesi və Siyasiləşmə Koordinatorluğu" bu istiqamətdə uyğun status təsviri ola bilər", - Baxçalı qeyd edib.

**MHP lideri koordinatorluq mexanizminin mənası və əhatə dairəsi ilə bağlı detalları da açıqlayıb:** “Bu status təşkilatın ləğvi ilə yanaşı, onun bütün törəmələri və ünsürləri ilə birlikdə qəti şəkildə aradan qaldırılmasına yönəlmiş məsələdir. Koordinatorluq PKK terror təşkilatının bütün uzantılarının, rəhbərlərinin və üzvlərinin tam şəkildə tərk-silah edilməsini və ləğv prosesini koordinasiya etmək, davam edən sülh prosesinin təşkilati baxımdan pozulmasının qarşısını almaq, sülh yerinə siyasət seçiminə uyğun legitim istiqamətləndirmələr etmək məqsədilə nəzərdə tutulur. Bu istiqamətdə Öcalanın koordinator statusu təşkilatın ləğvi prosesi ilə məhdudlaşacaq. Buna görə də bu kordinatorluq kürdlərin lideri və təmsilçisi olmaq, etnik və kateqorik hüquqların müdafiəçiliyi kimi məsələləri əhatə etmir”.

Bəs qardaş ölkədəki müzakirələrə Bakıdan nə reaksiyalar var? Bu təklifin Türkiyədə qəbul edilməsi mümkündürmü? Öcalana belə bir status verilməsinin müsbət və mənfi təsirləri nələr ola bilər?

**Politoloq Oqtay Qasımov** “Yeni Müsavat”a bildirdi ki, “Terrorsuz Türkiyə” ideyası artıq bir ildir Türkiyənin gündəmindədir və bu ideya da MHM lideri Dövlət Baxçalı tərəfindən irəli sürülən təklifdir: “Bu təklif irəli sürüləndən sonra prosesdə müəyyən irəliləmələr olub. DEM Partiya nümayəndələrinin dəfələrlə İmralıda Abdulla Öcalanla görüşləri baş tutub. Orada müəyyən razılaşmalar və razılaşma mətni əldə edilib. Həmçinin Abdulla Öcalanın PKK-ya müraciəti olub. Bəzi ərazilərdə PKK silahlıları silahı yerə qoyublar. Amma bu, bütünlükdə PKK terrorunun kökünün kəsilməsi demək olmayıb. Belə ki, PKK-nın əsas qolları olan Suriyadakı PYD-YPG terror təşkilatı, İrandakı PJK və digərləri bu prosesə qoşulmayıblar, özlərinin ayrı təşkilat olduqlarını bəyan etməklə terror fəaliyyətlərini davam etdirmək istəyirlər. O ki qaldı terrorun kökünün tamamilə kəsilməsi, Öcalanın statusunun dəyişdirilməsi və ona siyasi kordinatorluq verilməsinə, bu, kifayət qədər mürəkkəb məsələdir. Türkiyə cəmiyyətinin özündə də bu istiqamətdə konkret siyasi qüvvələr arasında konsensus yoxdur. Bir çoxları bu ideyanın gerçəkləşdirilməsinin faydalı olacağı, bir çoxları isə bunun Türkiyənin gələcəyi ilə bağlı ciddi problemlər yaradacağı qənaətindədir. O baxımdan kifayət qədər mürəkkəb bir vəziyyətdir”.

**Politoloqun sözlərinə görə, nəzərə alsaq ki, Öcalanın PKK üzərində müəyyən təsirləri olsa da həlledici təsiri yoxdur, bu amil də ortaya suallar çıxarır:** “Adam artıq 27 ildir həbsdədir və təşkilatla bağlı olsa da ümumən təsir imkanları azalıb. Xüsusilə İraqın Qəndil bölgəsində yerləşən PKK-nın əsas idarəediciləri Abdulla Öcalanın bir çox fikirləri ilə razılaşmırlar və silahlı mübarizənin davam etdirilməsinin tərəfdarları kimi çıxış edirlər. Ona görə də Öcalana yeni status verilməsinin PKK üzərində nə qədər təsirli olacağı bir sualdır, gələcəkdə Öcalanın bu prosesi idarə etməsinin nə qədər effektli olacağı başqa bir sualdır. Bu sualların cavabı birmənalı deyil. O baxımdan hesab eləmirəm ki, təklif qısa müddətdə həyata keçsin. Bu, kifayət qədər riskli bir məsələdir. Türkiyə cəmiyyətində bununla bağlı yekdil fikir yoxdur”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026



# Saatlıq işləyənlər pulu aylıq alacaq

**Bir sıra ölkələrdə tətbiq olunan saatlıq əməkhaqqı sistemi Azərbaycanda da müzakirə mövzusu olaraq qalır. Mütəxəssislər hesab edir ki, belə sistem tətbiq olunarsa, əmək münasibətlərinin tənzimlənməsi qanunvericilik əsasında aparılmalıdır.**

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov** bildirib ki, saatlıq əməkhaqqı tətbiq edilən ölkələrdə bu mexanizm qanunvericiliklə tənzimlənir: "Saatlıq əməkhaqqı sistemini tətbiq edən ölkələrdə bu, qanunvericiliklə tənzimlənir və işəgötürənlə işçi üçün konkret öhdəliklər müəyyənləşdirilir. Bu artıq tərəflərin öz aralarında müəyyən etdiyi məsələ deyil. Əmək münasibətləri qanunvericiliyin müəyyən etdiyi tələblər əsasında formalaşır".

Deputat qeyd edib ki, əsas məsələlərdən biri işçi və işəgötürən münasibətlərinin necə tənzimlənəcəyidir: "Burada əsas istiqamətlərdən biri əmək münasibətlərinin necə tənzimlənməsi və işçi ilə işəgötürənin öhdəliklərinin necə müəyyənləşdirilməsidir".

Vüqar Bayramov vurğulayıb ki, saatlıq əməkhaqqı sistemi tətbiq olunsa belə, vergi ödəniş mexanizmi dəyişmir: "Təbii ki, burada vergi əməkhaqqına uyğun hesablanır. Əməkhaqqı hər saata görə müəyyənləşdirilsə də, ödəniş adətən ayda bir və ya maksimum iki dəfə həyata keçirilir. Dünya praktikasında da bu model tətbiq olunur. Əksər hallarda əməkhaqqı ayda iki dəfə ödənilir".

Deputatın sözlərinə görə, inkişaf etmiş ölkələrdə ödəniş intervalı bəzi hallarda işçi və işəgötürən arasında razılaşdırıla bilir: "Bəzi hallarda ayda bir dəfə də ödəniş edilir və bu məsələ tərəflər arasında razılaşdırıla bilər. Amma əsas məqam ondan ibarətdir ki, vergi ödənilən əməkhaqqına uyğun hesablanır".

O bildirib ki, saatlıq hesablanma olsa da, aylıq əməkhaqqı məbləği formalaşır və vergitutma buna uyğun aparılır: "Əməkhaqqının hesablanması saata görə həyata keçirilsə də, nəticə etibarilə aylıq əməkhaqqı məbləği müəyyənləşir və vergi də ona uyğun hesablanır. Bu da qanunvericiliklə tənzimlənir və əməkhaqqından vergi ödənilməsində hər hansı dəyişiklik baş vermir. Ödənilən məbləğə uyğun olaraq vergi büdcəyə cəlb edilir".

❑ **"Yeni Müsavat"**



# Azərbaycanda minimum maaş 700 manat olarsa...

## İqtisadçı deyir ki, minimum əməkhaqqının sürətli artımı əlavə maliyyə və inflyasiya riskləri yarada bilər

**Ötən həftə Azərbaycanda hökumət, biznes və zəhmətkeşlər arasında ənənəvi illik saziş imzalanıb. Fed.az xəbər verir ki, Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar Konfederasiyası arasında 3 illik saziş simvolik sənəd olmaqla daha çox tərəflərin niyyətini göstərir. Təsadüfi deyil ki, bundan əvvəlki sazişlərdə də göstərilən tədbirlərin əksəriyyəti həllini tapmayıb və ya yarımçıq yerinə yetirilib.**

Sənəddə əməkhaqqının artımı, daha dəqiqi, əməkhaqqının hesablanması ilə bağlı yeni mexanizmlərin yaradılması nəzərdə tutulur. Belə ki, tərəflər minimum saatlıq əməkhaqqı tətbiq edilməsinə nail olmaq niyyətindədirlər. Eləcə də minimum əməkhaqqı məbləğinin mərhələlərlə artırılması istiqamətində işləri davam etdirmək və minimum əməkhaqqının ölkə üzrə orta aylıq əməkhaqqına nisbətinin Avropa Sosial Xartiyasının tələblərinə uyğunlaşdırılması istiqamətində səylər göstərmək nəzərdə tutulur. Bu qaydanın tətbiqi Azərbaycan üçün nə deməkdir?

Məlum olduğu kimi, hazırda Azərbaycanda minimum əməkhaqqı 400 manat, orta aylıq əməkhaqqı isə 1151 manat (aprel 2026-ya olan vəziyyət) təşkil edir. Əgər orta aylıq əməkhaqqının bu səviyyəsinə Avropa Sosial Xartiyası tətbiq edilsə, ölkədə minimum əməkhaqqı 1151 manatın 60%-i həcmində, yəni 691 manat olmalıdır. Bu, indiki səviyyədən 291 manat və ya 73% artıqdır. Bu mənada minimum əməkhaqqının artması milyona yaxın dövlət və özəl sektorda çalışan insanın maaşının artmasına səbəb ola bilər. Təqribi hesablamalara baxsaq, bu, aylıq maaş fondunun 200 milyon manat, illik isə təqribən 2,5 milyard manat böyüməsi deməkdir və indikindən azı 10% artıqdır, həmin səviyyəyə çatmaq üçün də böyük vəsait tələb edir. Təsadüfi deyil ki, son illər ərzində ilk dəfə olaraq 2026-cı ilin əvvəlində minimum əməkhaqqının artması baş vermədi və bu təəccüblü olmadı. Ona görə də sazişdə nəzərdə tutulmasına baxmayaraq həmin addımın yaxın vaxtlarda reallaşması sual altındadır.

**Liberal İqtisadçılar Mərkəzinin sədri, aqrar sahə üzrə ekspert Akif Nəsirli mövzu ilə bağlı Musavat.com-a fikrini bölüşüb:** "Azərbaycanda hökumət, işəgötürənlər və həmkarlar ittifaqları arasında imzalanan yeni üçtərəfli saziş formal olaraq sosial tərəfdaşlığın gücləndirilməsi məqsədi daşısa da, sənədin əsas diqqət çəkən hissəsi minimum əməkhaqqının hesablanmasına yeni yanaşmanın tətbiqi ilə bağlıdır. Burada əsas məsələ minimum əməkhaqqının ölkə üzrə orta aylıq əməkhaqqına nisbətinin Avropa Sosial Xartiyasına uyğunlaşdırılmasıdır. Bu yanaşma reallaşarsa, Azərbaycanda əmək bazarında və dövlət maliyyəsində ciddi dəyişikliklər yarana bilər".

**İqtisadçı xatırladıb ki, Azərbaycan hökuməti Avropa Sosial Xartiyasına 2001-ci ildə qoşulub və sözügedən öhdəliyi 5 il ərzində yerinə yetirməyi vəd etmişdi:** "Amma təəssüf ki, o vaxtdan 25 il ötməsinə rəğmən biz eyni məsələni müzakirə edirik. Hazırda ölkədə minimum əməkhaqqı 400 manatdır, orta aylıq əməkhaqqı isə 1151 manat səviyyəsindədir. Avropa Sosial Xartiyasında qəbul edilən yanaşmaya görə minimum əməkhaqqı orta əməkhaqqının təxminən 60%-nə yaxın olmalıdır. Bu prinsip Azərbaycana tətbiq edilərsə, minimum əmək haqqı təxminən 691 manata yüksəlməlidir. Bu isə indiki səviyyədən 73% çoxdur, həm dövlət, həm də özəl sektor üçün böyük maliyyə yükü yaradır".

**Müsahibimiz əlavə edib ki, belə bir artım ilk növbədə aşağı gəlirli əhali üçün müsbət təsir göstərə bilər:** "Minimum əməkhaqqı ilə çalışan insanların gəlirlərinin artması onların alıcılıq qabiliyyətini yüksəldər, daxili tələbatı genişləndirər və yoxsulluğun müəyyən qədər azalmasına səbəb ola bilər. Xüsusilə inflyasiya fonunda maaşların artırılması sosial narazılığın yumşaldılması baxımından da əhəmiyyətli görünür. Dövlət sektoru ilə yanaşı özəl sektorda çalışan çoxsaylı işçilərin də maaşlarının yüksəlməsi ümumi əmək bazarında əməkhaqqı standartlarını dəyişə bilər.

Lakin məsələnin digər tərəfi daha mürəkkəbdir. Minimum əməkhaqqının birdən-birə bu qədər artırılması işəgötürənlərin xərclərini ciddi şəkildə yüksəldəcək. Xüsusilə kiçik və orta biznes üçün bu əlavə yük əmək bazarında problemlər yarada bilər. Bəzi şirkətlər xərcləri azaltmaq üçün işçi sayını azaltmağa, əməkhaqqının bir hissəsini qeyri-rəsmi ödəməyə və ya qiymətləri artırmağa çalışa bilər. Bu isə inflyasiya təzyiqlərini gücləndirə bilər.

Ona görə də proses indiyə qədər tədricən, həm də müxtəlif vasitələrlə əmək məhsuldarlığının artırılması ilə həmahəng getməli idi".

**Akif Nəsirliyə görə, dövlət büdcəsinə təsir də kifayət qədər böyükdür:** "Təxmini hesablamalara görə, minimum əməkhaqqının bu səviyyəyə çatdırılması illik maaş fondunu təxminən 2,5 milyard manat artıra bilər. Bu məbləğin əhəmiyyətli hissəsi dövlət sektoru və büdcədən maliyyələşən təşkilatların üzərinə düşəcək. Azərbaycanın hazırkı büdcə imkanları və neft gəlirlərindən asılı iqtisadi modeli nəzərə alınarsa, belə bir artımın qısa müddətdə tam tətbiqi çətin görünür.

Məhz buna görə son illərdə ilk dəfə olaraq 2026-cı ilin əvvəlində minimum əməkhaqqının artırılmaması diqqət çəkdi. Bu göstərir ki, hökumət artıq maaş artımlarında daha ehtiyatlı davranmağa başlayıb. Çünki son illərdə sosial ödənişlər və əməkhaqları bir neçə dəfə artırılıb və bunun büdcəyə təsiri böyüyüb. Yeni sazişdə məqsəd kimi göstərilsə də, minimum əməkhaqqının yaxın zamanda 691 manata çatdırılması real iqtisadi imkanlardan daha çox uzunmüddətli hədəf kimi görünür.

Bununla yanaşı, minimum saatlıq əməkhaqqının tətbiqi ideyası da mühüm dəyişiklik sayıla bilər. Hazırda Azərbaycanda əsasən aylıq minimum əməkhaqqı sistemi tətbiq olunur. Saatlıq minimum əməkhaqqına keçid isə əmək bazarının daha çevik idarə olunmasına, yarımştat və müvəqqəti işlərin daha şəffaf tənzimlənməsinə kömək edə bilər. Bu model xüsusilə xidmət sektorunda və qeyri-formal məşğulluğun yüksək olduğu sahələrdə vacib hesab olunur.

Ümumilikdə, saziş Azərbaycanda sosial siyasətin Avropa standartlarına yaxınlaşdırılması niyyətini göstərir. Amma əvvəlki illərin təcrübəsi göstərir ki, bu tip sənədlərdə qeyd olunan hədəflərin tam icrası həmişə mümkün olmur. Əsas problem iqtisadi artım tempi ilə sosial öhdəliklər arasında balansın qorunmasıdır. Əgər iqtisadiyyat yüksək gəlir və məhsuldarlıq yaratmasa, minimum əmək haqqının sürətli artımı uzunmüddətli dövrdə əlavə maliyyə və inflyasiya riskləri yaradacaq. Buna görə də hökumətin bu istiqamətdə mərhələli və ehtiyatlı siyasət aparacağı daha real görünür".

❑ **Afaq MİRAYİQ,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

# 3+3 formatının süqutu

## Ekspert: "Rusiya onun iflasını açıq şəkildə etiraf etmək istəmir, amma..."

**Rusiyanın Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə IV departamentinin direktoru Mixail Kaluqin bəyan edib ki, Rusiya Cənubi Qafqaz üzrə 3+3 formatında təmasların davam etdirilməsində maraqlıdır və bu platformanın tam fəaliyyətinin tezliklə bərpa olunacağına ümid edir: "3+3 formatı artıq Azərbaycanı, Ermənistanı, Gürcüstanı, eləcə də Rusiya, İran və Türkiyəni əhatə edir və regional məsuliyyət prinsipi əsasında Cənubi Qafqaz dövlətləri ilə onların ən yaxın qonşuları arasında əməkdaşlığın qurulması üçün mühüm alətdir. Bir sıra obyektiv səbəblərdən, o cümlədən İran ətrafındakı vəziyyətlə əlaqədar olaraq, 3+3 formatında növbəti nazirlər görüşünün təşkilində müəyyən fasilə yaranıb. Lakin təmasların davam etdirilməsinə maraq qalır. Platformanın tam fəaliyyətinin tezliklə bərpa olunmasını səbirsizliklə gözləyirik".**




Gürcüstan bu platformada iştirak etmir. Ermənistanın da Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim etməsi gündəmdədir. Belə bir geosiyasi proseslər fonunda 3+3 formatının işləməsi nə dərəcədə realdır?

**Tanınmış gürcü politoloq, "Rondeli Foundation"un nəzdindəki Avropa Araşdırmaları Mərkəzinin direktoru Kaxa Qoqolaşvili** Pressklub.az-a açıqlamasında xatırladıb ki, Gürcüstan 3+3 formatına hər zaman skeptik yanaşıb və hələ Ukraynada müharibə başlamazdan əvvəl də bu formatda iştirak etmək niyyətində olmayıb: "Bunun səbəbi Rusiyaya olan etimadsızlıqdır. Bundan əlavə, əvvəlcədən tamamilə aydın idi ki, bu formatın məqsədi Avropa İttifaqı və ABŞ-ni Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq, eləcə də formatın böyük iştirakçılarının kiçik iştirakçılar üzərində təsirini gücləndirmək üçün müəyyən koordinasiyaya nail olmaqdır.

Hazırda nə Rusiya, nə də İran Cənubi Qafqaz ölkələri üçün uyğun tərəfdaş hesab oluna bilməz. İqtisadi əlaqələr hər hansı siyasi formatlar və öhdəliklər olmadan da işləyə bilər. Üstəlik, bu mərhələdə həmin ölkələrlə yeni münasibətlərə daxil olmaq zərərli və risklidir.

Rusiya Xarici İşlər Nazirliyi rəsmisinin bəyanatına gəlincə, düşünürəm ki, bu, başlanmış, lakin yarımçıq qalmış layihənin əks-sədasıdır və onun iflasını açıq şəkildə etiraf etmək istəmirlər. Belə diskurs əlavə qalmaqallar və qarşılıqlı ittihamlar olmadan layihənin tədricən unudulmasını təmin etməli olan strategiyanın bir hissəsi ola bilər".

Sözügedən məsələ ilə bağlı fikirlərini Baki-xeber.com-la bölüşən **siyasi şərhçi Azər Həsrət** hesab edir ki, əslində Azərbaycan belə bir platformanın olmasında maraqlı idi: "Gürcüstan əvvəldən bu formatdan imtina edib. Çünki Rusiya Gürcüstan ərazilərinin 20 faizini işğal altında saxlayır. Təbiidir ki, torpağını işğal etmiş Rusiya ilə eyni platformada Gürcüstan çıxış edə bilməzdi. Ona görə də bu təşəbbüs irəli sürüləndən bir müddət sonra şəxsi qənaətimi dilə gətirdim ki, əslində bu platforma 3+3 yox, 3+1 formatında olarsa, effekt alınar. Bu, nə deməkdir? 3 Cənubi Qafqaz respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan. Eyni zamanda qardaş Türkiyə. Bax bu 4 dövlət bir araya gələrsə, hesab edirəm Cənubi Qafqazın məsələlərini birlikdə həll edə bilərlər. Türkiyə burada daha çox vasitəçi rolunda çıxış edə bilər. Əgər Cənubi Qafqaz respublikaları +3 qonşu dövlətdən söhbət gedirsə, o dövlətlərin üçü də neytral mövqedə olmalıdır. Belə bir şəraitdə onların iştirakı ilə 3+3 platforması ağlabatan və işləyəcək bir mexanizm deyil. Ona görə də hesab edirəm ki, Azərbaycan növbəti təşəbbüslə çıxış etməlidir. 3+1 platformasını təşkil etməli və orada müzakirələrə başlamalıdır. Bu platformaya əminəm ki, nə Gürcüstan, nə də Ermənistan etiraz etməz. Çünki hər ikisi qardaş Türkiyə ilə münasibətlərə can atır, yaxşı münasibətlərin qurulmasının qayğısına qalır. Gürcüstanın Türkiyə ilə zatən yaxşı münasibətləri var. Ermənistan da çalışır ən azı Gürcüstan səviyyəsində münasibətlər qursun. Üstəlik, Ermənistan Rusiyadan uzaqlaşıb Avropaya üz tutmaqdadır".

❑ **"Yeni Müsavat"**

# Qalibafa yeni görəv

## İran İslam Şurası Məclisinin sədri Qərb və Şərq diplomatiyasını öz əlində cəmləyir

**İran İslam Şurası Məclisinin (parlament) sədri Məhəmməd Baqir Qalibaf Çinlə işlər üzrə xüsusi nümayəndə təyin edilib. Təhlilçilərin fikrincə, bu addım yalnız ikitərəfli münasibətlərlə bağlı mesaj vermir, Pekindən daha çox Vaşinqtonla əlaqəlidir.**



Hökumət təyinatla bağlı rəsmi açıqlama verməyib. Xəbəri ilk olaraq İslam İnqilabı Keşikçiləri Korpusuna (SEPAH) yaxın "Tasnim" və "Fars" agentlikləri məlumatlı mənbələrə istinadən yayıb. Hər iki agentlik bildirib ki, keçmiş SEPAH komandiri olan Qalibaf prezident Məsud Pezeşkianın təklifi və ali rəhbər Müctəba Xameneinin təsdiqi ilə bu vəzifəyə gətirilib.

"Tasnim"in mənbələri deyib ki, bu vəzifə səlahiyyət miqyasına görə Qalibafdan əvvəlki təmsilçilərin fəaliyyətindən fərqlənir. Lakin detallar açıqlanmayıb. Əvvəlki nümayəndələr ayrı-ayrı mandatlarla fəaliyyət göstəriblər: martda İsrailin hücumu nəticəsində öldürülən Əli Laricani ali rəhbərin Çin məsələləri üzrə təmsilçisi idi, Əbdülrza Rəhmani Fəzli isə prezidentin nümayəndəsi kimi çıxış edirdi.

"AzadlıqRadiosu"nun İran üzrə yazarı Kian Şərifi qeyd edir ki, Qalibafın təyinatı faktiki olaraq bu iki xətti daha güclü bir vəzifədə birləşdirir. "Tasnim"ə görə, "Qalibaf prezidentin və ya ali rəhbərin deyil, İranın xüsusi nümayəndəsidir".

Almaniyada yaşayan **iranlı siyasi analitik Əmir Çahaki** bildirib ki, bu təyinata ilk növbədə ABŞ-İran danışıqlarının dayanması kontekstində baxılmalıdır: "Fikrimcə, bu addım Qalibafın Amerika ilə danışıqlardakı mövqeyini gücləndirəcək. Məqsəd parlament sədrinə ABŞ ilə mümkün danışıqlarda daha mühüm rol verməkdir".

Təhlilçi deyir ki, Çin diplomatik dayaq nöqtəsi kimi Tehran üçün getdikcə daha vacib hala gəlir və Pekin artıq "strateji vasitəçi kimi Rusiyanı belə geridə qoyub".

İran hakimiyyətinə yaxın analitiklər isə bu təyinatı məqsədli strateji siqnal sayırlar. Mühafizəkar keçmiş iqtisadiyyat naziri Ehsan Xənduzi sosial şəbəkə hesabında bunu "İran-Amerika qarşıdurmasının mürəkkəb meydanında yeni kart" adlandırıb. Onun fikrincə, İran indi Pekinlə "strateji tərəfdaşlıq paketi" hazırlamalı və bunu gerçəkləşdirmək üçün çevik, tam səlahiyyətli qurum yaratmalıdır.

### Çinlə bağlı əvvəlki fəaliyyət zəif olub

**Tehranda yaşayan, hakimiyyətə yaxın mövqeyi ilə tanınan təhlilçi Mustafa Nəcəfi isə daha əvvəl Çinlə bağlı fəaliyyətin zəif olduğunu qeyd edib. O, X platformasında yazıb**: "Son illər İran-Çin münasibətlərinin strateji istiqamət kimi inkişafı müxtəlif şəxslərə və qurumlara tapşırılmışdı. Lakin əvvəlki təmsilçilərin heç biri bu işi qənaətbəxş nəticəyə çatdıra bilmədi".

Nəcəfin sözlərinə görə, Qalibafın idarəçilik təcrübəsi, irimiqyaslı infrastruktur və iqtisadi layihələri idarəetmə bacarığı onu Pekinlə əməkdaşlıq üçün ən uyğun fiqura çevirir. Çin adətən layihələri operativ şəkildə icra etmək və sürətli qərarlar vermək qabiliyyətinə malik şəxslərlə tərəfdaşlığa daha çox üstünlük verir.

İran və Çin 2021-ci ildə 25 illik hərtərəfli əməkdaşlıq sazişi imzalasa da, onun icrası ləng gedib və vəd edilən investisiyaların çoxu reallaşmayıb.

Qalibafın təyinatı İranın ABŞ ilə 40 günlük döyüşlərdən sonra əldə olunmuş kövrək atəşkəsi qorumağa çalışdığı, sülh danışıqlarının dalana dirəndiyi və Pakistanın vasitəçiliyi davam etdirdiyi bir vaxta təsadüf edir. O, apreldə İslamabadda Vaşinqtonla yeganə birbaşa danışıqlarda İran nümayəndə heyətinə rəhbərlik edib. Parlament sədrinə Çinlə bağlı məsələlərin tapşırılması onu göstərir ki, Tehran həm Şərq tərəfdaşlığını, həm də Qərblə qarşıdurma xəttini eyni vaxtda ən etibarlı fiqurlarından birinin əlində cəmləşdirir.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

# ÜST yenidən fövqəladə vəziyyət elan etdi



**Afrika ölkələrində yenidən yayılan Ebola virusu dünya ictimaiyyətində ciddi narahatlıq yaradıb. Konqo Demokratik Respublikası və Uqandada qeydə alınan yeni epidemiya nəticəsində indiyədək 131 nəfər həyatını itirib.**

Yoluxma hallarının sürətlə artması səbəbindən Ümumdünya Səhiyyə Təşkilatı Ebola epidemiyasını "beynəlxalq əhəmiyyətli ictimai səhiyyə fövqəladə vəziyyəti" elan edib.

Məlumata görə, ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (CDC) Konqo Demokratik Respublikasında çalışan amerikalı həkimin Ebola virusuna yoluxduğunu təsdiqləyib. Beynəlxalq yardım təşkilatları həmin şəxsin həkim Dr. Peter Stafford olduğunu açıqlayıblar. Onun karantinə alındığı, ailə üzvlərinin və birlikdə çalışan digər şəxslərin isə müşahidə altında saxlanıldığı bildirilib.

ÜST rəsmiləri epidemiyanın hələ qlobal pandemiya səviyyəsinə çatmadığını qeyd etsələr də, yoluxma və ölüm hallarının artım tempinin ciddi təhlükə yaratdığını vurğulayıblar.

Virusun yayılmasının qarşısını almaq məqsədilə ABŞ hökuməti COVID-19 pandemiyasından sonra ilk dəfə "Title 42" adlı ictimai səhiyyə qanununu yenidən tətbiq etmək qərarı verib. Qərara əsasən, son üç həftə ərzində Uqanda, Konqo Demokratik Respublikası və ya Cənubi Sudana səfər etmiş və ABŞ pasportu olmayan şəxslərin ölkəyə girişinə ciddi məhdudiyyətlər qoyulacaq.

# İsveçrə tarixinin ən ciddi ekoloji böhranlarından biri ilə üz-üzə



**İsveçrə tarixinin ən ciddi ekoloji böhranlarından biri ilə üz-üzə qalıb. Musavat.com xəbər verir ki, ölkədə buzlaqların sürətlə əriməsi dağlıq bölgələrdə böyük təhlükə yaradıb və bəzi kəndlərdə təxliyə işlərinə başlanılıb. Yerli hakimiyyət orqanları riskli ərazilərdə fövqəladə vəziyyət elan edib.**

İsveçrə Buzlaq Monitorinq Şəbəkəsinin (GLAMOS) məlumatına görə, ölkə buzlaqları son 10 ildə ümumi həcminin 25 faizini itirib. Alimlər bildirirlər ki, isti qış mövsümü və qar örtüyünün azalması buzlaqları daha da zəifləDib.

Ən təhlükəli vəziyyətin Valais və Graubünden kantonlarında yarandığı bildirilir. Buzlaqların əriməsi nəticəsində dağlarda böyük qaya parçaları boşalır və yaşayış məntəqələrini təhdid edir. Geoloqlar bəzi ərazilərdə torpaq sürüşmələrinin "saniyələr içində" baş verə biləcəyi barədə xəbərdarlıq ediblər.

Brienz və ətraf kəndlərdə sirenlər işə salınıb, əhali təhlükəsizlik məqsədilə bölgədən çıxarılıb. Hökumət həmin ərazilərə girişləri qadağan edib və 24 saatlıq nəzarət sistemi qurub.

İsveçrə Federal Şurası buzlaqların əriməsini artıq "milli təhlükəsizlik məsələsi" adlandırır.

❑ **Musavat.com**

# Bakı-Moskva xəttində intensiv müzakirələr

## Gürcü politoloqa görə, iki ölkə münasibətləri praqmatizm rejiminə keçirilir



**Rusiya Xarici İşlər Nazirliyi Rusiya ilə Azərbaycan arasında mədəni və humanitar əlaqələrin son zamanlar zəiflədiyini və indi gücləndirilməli olduğunu bildirib. Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə Dördüncü Departamentinin direktoru Mixail Kaluqin TASS-a müsahibəsində bildirib ki, sıx mədəni və humanitar əlaqələr olmadan tam hüquqlu ikitərəfli əməkdaşlıq mümkün deyil.**

"Təəssüf ki, son zamanlar məhz bu sahə zəifləyib və indi onları gücləndirməyin vaxtıdır. Ümid edirik ki, yaxın gələcəkdə Azərbaycanda Rusiya İnformasiya və Mədəniyyət Mərkəzini bərpa edəcəyik", - deyə Kaluqin qeyd edib.

Məlum olduğu kimi, 2025-ci ilin fevralında Bakıdakı Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin ("Rus Evi") fəaliyyəti dayandırılıb və binası boşaldılıb.

Son aylar iki ölkə hökumətləri arasında işgüzar münasibətlər artıb. Mart ayında Rusiya baş nazirinin müavini Aleksey Overçuk Azərbaycanlı həmkarı Şahin Mustafayevlə iki ölkə arasında praktiki qarşılıqlı fəaliyyətin bütün aktual məsələlərini kompleksini müzakirə ediblər. Ticarət-iqtisadi, sənaye, enerji, nəqliyyat-logistika və aqrar-sənaye əməkdaşlığının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib. Aprelin 16-da Zəngilan şəhərində iki ölkə arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının iclası olub. Ötən həftə isə Kazan Beynəlxalq İqtisadi Forumu çərçivəsində baş nazir müavinləri yenidən görüşüblər.

Göründüyü kimi, Bakı və Moskva intensiv müzakirələr aparır və hər iki tərəf qarşılıqlı münasibətlərdən məmnundur. O səbəbdən Rusiya XİN-in rəsmisi xüsusilə "Rus Evi" məsələsini birdəfəlik bağlamaq istəmir və nəyəsə ümid edir. Bakı-Moskva münasibətlərində ortaq məxrəc tapılıb və məlum soyuqluq aradan qaldırılıb. İndi Moskva və Bakı iqtisadi əlaqələr fonunda bu kimi mədəni əlaqələrə zamanı çatanda yenidən baxa bilər.

**Milli Məclisin deputatı Aydın Mirzəzadə** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanla Rusiya arasında onsuz da tarixən yaxşı humanitar-mədəni əlaqələr olub: "Azərbaycanda üç yüzə qədər orta məktəb tam rusdillidir və yaxud da rus bölməsi var. Azərbaycan əhalisinin əhəmiyyətli hissəsi rus dilini bilir, Rus Dram Teatrı fəaliyyət göstərir. Kitab mağazalarımızda rus dilində kitablar satılır. Rusiya universitetlərində əhəmiyyətli dərəcədə azərbaycanlı gənclər təhsil alırlar. O başqa məsələ ki, Rusiya yəqin Azərbaycanla bu sahədə olan əlaqələrin daha da genişlənməsini istəyir. Bu, normal bir istəkdir. Qonşu ölkələr arasında əlaqələr dərin və hərtərəfli olarsa, bu, əlbəttə ki, mehriban qonşuluğu daha da möhkəmləndirir. Bir ölkənin digər ölkədə mədəniyyət mərkəzinin olması dünya təcrübəsində olan məsələdir. Azərbaycan həmişə bu istəkdə olanlara müsbət cavab verib. Sadəcə olaraq, bu mərkəzlər Azərbaycan qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınmalı və yenə də qanunlarımıza uyğun olaraq hərəkət etməlidirlər".

**Gürcüstan Strateji Analiz Mərkəzinin (GSAC) aparıcı eksperti Gela Vasadze** bununla bağlı fikirlərini Pressklub.az-la bölüşüb. Onun sözlərinə görə, burada əsas məqamı anlamaq vacibdir: Bakı ilə Moskva dostluqda deyil, münasibətlərin idarəolunan formada qalmasında maraqlıdır: "Rusiyaya Azərbaycanla münasibətlərin tam qırılması lazım deyil, çünki Azərbaycan logistika, Cənubi Qafqaz, Türkiyə və İranla münasibətlər baxımından vacibdir. Azərbaycana da Rusiya ilə nəzarətsiz münaqişə lazım deyil, çünki Rusiya təhlükəsizlik, miqrasiya, ticarət və regional təzyiq amili olaraq qalır. Amma bunlar artıq etimada deyil, hesablanmış maraqlara əsaslanan münasibətlərdir.

Buna görə də zahirdə ziddiyyətli mənzərə görürük: haradasa təmaslar davam edir, haradasa normallaşma ilə bağlı bəyanatlar verilir, haradasa iqtisadi və diplomatik kanallar işləyir, paralel olaraq isə cinayət işləri, sərt açıqlamalar, informasiya hücumları və güc nümayişi ortaya çıxır. Bu təsadüf deyil, münasibətlərin yeni reallığıdır. Əsas nəticə budur: Bakı ilə Moskva arasındakı münasibətlər əvvəlki formada bərpa olunmur. Onlar soyuq praqmatizm rejiminə keçirilir. Tərəflər özlərinə sərf edən yerdə razılığa gələcək, lazım bildikləri yerdə isə bir-birilərinə təzyiq göstərəcəklər. Buna görə də ziddiyyətlər qalmaqda davam edəcək. Bu, artıq əvvəlki illərin müttəfiqlik ritorikası deyil, münaqişənin qiymətini anlayan, amma artıq aralarında hər şeyin əvvəlki kimi olduğunu göstərməyə hazır olmayan iki oyunçunun münasibətləridir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Çin lideri Putini niyə tənqid edib?



**Çin Prezidenti Si Cinpin ABŞ Prezidenti Donald Trampla Pekində keçirdiyi görüş zamanı Rusiya lideri Vladimir Putinin Ukraynaya hücum qərarına görə gələcəkdə "peşman ola biləcəyini" bildirib.**

Modern.az xəbər verir ki, bu barədə məlumatlı mənbələrə istinadən "Financial Times" qəzeti yazıb. Bildirilir ki, Si Cinpin Rusiya-Ukrayna müharibəsi ilə bağlı müzakirələr zamanı Putinin qərarını dolayısı ilə tənqid edib. Mənbələrin sözlərinə görə, Çin lideri daha əvvəl ABŞ-nin keçmiş prezidenti Co Baydenlə apardığı danışıqlarda Ukrayna münaqişəsi barədə belə fikirlər səsləndirməmişdi.

"Financial Times" qeyd edir ki, Si Cinpinin açıqlaması müharibənin dörd ildən sonra dalana dirəndiyi, Ukraynanın isə Rusiyanın dərinliklərindəki hədəflərə pilotsuz uçuş aparatları ilə daha effektiv zərbələr endirdiyi bir dövrə təsadüf edir.

Məlumata görə, Tramp administrasiyası mayın 17-də Pekində keçirilən sammitlə bağlı hesabat yayıb. Lakin açıqlamada liderlərin Rusiya-Ukrayna müharibəsini müzakirə etməsi barədə məlumat yer almayıb.

YENİ MÜSAVAT
N 19 (8868) 20 may 2026

# Ən çox boşanmanın olduğu bölgələr

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə hesabatında daha nələr var?

**Azərbaycanda qadınların sayının kişilərdən çox olduğu qurumlar açıqlanıb. Statistikaya görə, səhiyyə, təhsil və elm sahəsində çalışan qadınlar üstünlük təşkil edir. Bu, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2025-ci il üzrə məlumatında əksini tapıb.**

Hesabatda bildirilib ki, Elm və Təhsil Nazirliyinin Aparatında çalışan 190 nəfərdən 97-si qadın olub. Nazirliyin strukturunda rəhbər vəzifələrdə çalışan kişilərin sayı 30, qadınların sayı isə 6 nəfər təşkil edib. Qeyd olunub ki, dövlət təhsil müəssisələrində ümumi təhsil üzrə direktor vəzifəsində çalışanların 1478-i qadın, 1952-si kişi olub. Direktor müavinləri arasında isə qadınlar üstünlük təşkil edib. Belə ki, 2577 qadın, 1529 kişi direktor müavini çalışır.

Ali təhsil müəssisələrində 53 rektordan 5-i qadın olub. Fakültə dekanları arasında 53 qadın, 112 kişi yer alıb. Kafedra müdirləri arasında isə 248 qadın, 445 kişi olub. Qeyri-dövlət təhsil müəssisələrində ümumi təhsil üzrə 18 qadın və 16 kişi direktor çalışır. Direktor müavinləri arasında isə 87 qadın, 37 kişi yer alıb. Məlumata əsasən, Azərbaycan Milli Elmlər Akademiyasında çalışanların ümumi sayı 2954 nəfər olub. Onlardan 1977-si qadın, 977-si kişi olub.

Hesabatda bildirilib ki, Səhiyyə Nazirliyinin Aparatı üzrə işçilərin 61%-ni qadınlar, 39%-ni kişilər təşkil edir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində çalışan 355 nəfərin 205-i qadın, 150-si kişi olub. TƏBİB-də çalışan işçilərin 55%-ni qadınlar, 45%-ni kişilər təşkil edib. Mədəniyyət Nazirliyində ümumi işçilərin sayı üzrə 64 qadın, 60 kişi çalışır. Rəhbər vəzifələrdə isə 21 kişi, 18 qadın yer alıb. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində 14 qadın, 15 kişi çalışır. Rəhbər vəzifələrdə çalışanların 4-ü qadın, 7-si kişi olub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində çalışan 74 nəfərin 52-si qadın, 22-si kişi olub. Rəhbər vəzifədə çalışanların 12-sini qadın, 6-sını kişi təşkil edib.

Hesabatda deyilir ki, 2025-ci ildə Azərbaycanda 1412 nikah pozulub, 20675 boşanma qeydə alınıb. Həm nikahların pozulması, həm də boşanma sayına görə Bakı şəhəri ilk sırada qərarlaşıb. Hesabata əsasən, 2025-ci ildə Bakı şəhərində 360 nikah pozulub, 6307 boşanma qeydə alınıb.

Boşanma sayına görə növbəti yerlərdə Qarabağ iqtisadi rayonu (1590), Abşeron-Xızı iqtisadi rayonu (1504), Mərkəzi Aran iqtisadi rayonu (1442), Gəncə-Daşkəsən iqtisadi rayonu (1374) və Lənkəran-Astara iqtisadi rayonu (1292) qərarlaşıb. Nikahların pozulması üzrə isə Lənkəran-Astara iqtisadi rayonu 223 faktla ikinci, Mil-Muğan iqtisadi rayonu 171 faktla üçüncü olub. Abşeron-Xızı iqtisadi rayonunda 122, Şirvan-Salyan iqtisadi rayonunda 105, Mərkəzi Aran iqtisadi rayonunda isə 97 nikah pozulub.




Qeyd olunub ki, Şəki-Zaqatala iqtisadi rayonunda 15, Qazax-Tovuz iqtisadi rayonunda 19, Naxçıvan Muxtar Respublikasında isə 10 nikah pozulması qeydə alınıb. Hesabatda bildirilib ki, ən az nikah pozulması Şərqi Zəngəzur iqtisadi rayonunda olub. Bölgədə ötən il cəmi 5 belə hal qeydə alınıb.

Sənədə əsasən, 2025-ci ildə Dağlıq Şirvan iqtisadi rayonunda 577, Quba-Xaçmaz iqtisadi rayonunda 922, Şirvan-Salyan iqtisadi rayonunda 922 boşanma qeydə alınıb. Naxçıvan Muxtar Respublikasında isə 889 boşanma rəsmiləşdirilib.

**Abortların sayı rekord həddə çatıb**

2025-ci ildə Azərbaycanda 95117 abortun 3178 18-19 yaş qrupunda, 66 abort isə 15-17 yaş qrupunda qeydə alınıb.

Hesabatda bildirilib ki, Səhiyyə Nazirliyinin məlumatlarına əsasən, 2025-ci ildə ölkə üzrə 95117 abort qeydə alınıb. Statistikaya görə, abort etdirənlərin 27498-i 30-34 yaş, 26329-u 25-29 yaş, 22811-i isə 35 və yuxarı yaş qrupunda olan qadınlar olub. Qeyd olunub ki, 20-24 yaş qrupunda 15235, 18-19 yaş qrupunda 3178, 15-17 yaş qrupunda isə 66 abort qeydə alınıb.

Hesabatda vurğulanıb ki, abortların sayı 2021-ci ildə 46877, 2022-ci ildə 57999, 2023-cü ildə 73816, 2024-cü ildə isə 78245 olub. Bu da son illərdə abortların sayında ciddi artım olduğunu göstərir.

Məlumata əsasən, 2025-ci ildə kontrasepsiya vasitələrindən istifadə edən qadınların sayı 31586 olub. Onların 9843-ü 25-29 yaş, 7922-si 30-34 yaş, 6782-si isə 35-49 yaş qrupunda olub.




Sənəddə həmçinin qeyd olunub ki, 2024-cü ildə doğulan 102310 körpənin 54221-i oğlan, 48089-u isə qız uşaqları olub. Doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq isə 6132 nəfər təşkil edib.



Qeyd olunub ki, doğulanda cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edib.

Hesabatda bildirilib ki, 2024-cü illə müqayisədə 2025-ci ildə doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq 6132-dən 5953-ə düşüb.

Vurğulanıb ki, ötən il 26 ana doğuş zamanı həyatını itirib.

**Azyaşlı anaların ən çox olduğu rayonlar**

2025-ci ildə Azərbaycanda 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 877 nəfər olub. Ən çox belə doğum Qarabağ və Mərkəzi Aran iqtisadi rayonlarında qeydə alınıb.

Hesabatda bildirilib ki, 2024-cü illə müqayisədə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 402 nəfər azalaraq 1279-dan 877-yə düşüb.

Məlumata əsasən, 2025-ci ildə ölkə üzrə 95875 doğulan uşaqdan 877-si 18 yaşadək qadınlar tərəfindən dünyaya gətirilib.

Statistikaya görə, ən yüksək göstərici Qarabağ iqtisadi rayonunda qeydə alınıb. Bölgədə 126 uşaq 18 yaşadək analar tərəfindən doğulub. Ağcabədi rayonunda 44, Bərdə rayonunda 40, Tərtər rayonunda isə 13 belə doğum qeydə alınıb. Mərkəzi Aran iqtisadi rayonunda da eyni sayda - 126 erkən doğum faktı qeydə alınıb. Yevlax rayonunda 59, Ucar rayonunda 20, Kürdəmir rayonunda isə 18 belə hal olub.

Qazax-Tovuz iqtisadi rayonunda 113, Lənkəran-Astara iqtisadi rayonunda 92, Mil-Muğan iqtisadi rayonunda isə 88 erkən doğum qeydə alınıb.

Gəncə-Daşkəsən iqtisadi rayonunda 81, Dağlıq Şirvan iqtisadi rayonunda 53, Şirvan-Salyan iqtisadi rayonunda isə 47 doğum 18 yaşadək anaların payına düşüb.

Bakı şəhərində 18618 doğulan uşaqdan yalnız 41-i, Naxçıvan iqtisadi rayonunda isə 3437 doğumdan 24-ü 18 yaşadək analar tərəfindən qeydə alınıb.

Ən az göstərici isə Şərqi Zəngəzur iqtisadi rayonunda olub. Bölgədə 3378 doğumdan cəmi 13-ü 18 yaşadək anaların payına düşüb.

**Məktəb direktorları ilə bağlı maraqlı rəqəmlər**

Azərbaycanda məktəb direktorlarının əksəriyyəti kişilərdən ibarətdir, direktor müavinləri arasında isə qadınlar üstünlük təşkil edir. Məktəbəqədər təhsil müəssisələrində çalışanların hamısı qadınlardır.

Hesabatda bildirilib ki, 2025/2026-cı tədris ilində dövlət və özəl ümumi təhsil müəssisələrində ümumilikdə 3485 direktor çalışıb. Onlardan 1974-ü kişi, 1511-i qadın olub. Qeyd olunub ki, dövlət məktəblərində çalışan direktorların 1956-sı kişi, 1491-i qadın təşkil edib. Özəl məktəblərdə isə 20 qadın, 18 kişi direktor çalışıb.

Məlumata əsasən, direktor müavinləri arasında qadınlar üstünlük təşkil edib. Belə ki, ümumilikdə 4204 direktor müavinindən 2664-ü qadın, 1540-ı kişi olub. Uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçılar arasında da qadınlar üstünlük təşkil edib. Bu sahədə çalışan 2544 nəfərdən 1597-si qadın, 947-si kişi olub. Hesabatda vurğulanıb ki, dövlət və özəl məktəbəqədər təhsil müəssisələrində çalışanların hamısı qadınlardır.

Qeyd olunub ki, 2025-ci ilin əvvəlinə dövlət məktəbəqədər təhsil müəssisələrində 1656, qeyri-dövlət məktəbəqədər təhsil müəssisələrində isə 153 müdir çalışıb.

❑ **"Yeni Müsavat"**

# Yer əhalisinin 70%-i şəhərlərdə yaşayacaq

## SDSN direktorundan ilginc açıqlamalar

**“Qlobal mənzil böhranının həlli istiqamətində bu yol xəritəsi ilə irəlilədikcə, hazırda 50 faiz şəhərləşmiş olan dünyamızın cəmi iki onillik ərzində 70 faiz şəhərləşmiş bir planetə çevriləcəyini görürük”.**

Bunu **Davamlı İnkişaf Həlləri Şəbəkəsinin (SDSN) direktoru Ceffri Saks** deyib.

O bildirib ki, davamlı İnkişaf Məqsədlərinin 2030-cu il hədəf tarixinə yaxınlaşırıq və paralel olaraq iqlim dəyişikliyi, təbii fəlakətlər, münaqişələr və yenidənqurma proseslərinin yaratdığı artan təzyiqlərlə üz-üzəyik: “Biz həm quruculuğu davam etdirməli, həm də itkiləri bərpa etməliyik. İnsanlar getdikcə daha çox şəhərlərə köçür, xüsusilə də Afrika kimi bölgələrdə. Burada əsasən gənc əhalidən və onsuz da ciddi çətinliklərlə qarşılaşan şəhərlərdən danışırıq. Bir çox yerlərdə əsas xidmətlər hələ də əlçatmazdır və insanlar fundamental imkanlara çıxış əldə edə bilmirlər”.

C.Saks onu da bildirib ki, şəhərlərə ümumi sığınacağımız kimi baxsaq, onların qarşılaşdığı problemlərin miqyasını daha yaxşı anlaya bilərik:

“Elə iki gün əvvəl biz bu reallığı burada, Bakıda yaşadıq. Mənə təqdim olunan məlumatlara əsasən, şəhərə bir gün ərzində illik normadan dörd dəfə çox yağış yağdı. Hamımız dayanıqlığın nə qədər vacib olduğunu və planlarımızı yenidən nəzərdən keçirərək uyğunlaşmağın nə qədər təcili olduğunu anladıq.



Məncə, bu, qlobal səviyyədə qarşılaşdığımız problemlərin çox vacib nümunəsidir. Dünyanın müxtəlif şəhərləri daşqınlarla üzləşir, torpaq sürüşmələri və yanğınlardan zərər görür, eyni zamanda təhlükəsizlik problemləri ilə mübarizə aparır. Şəhərlər həqiqətən də ön cəbhədədir.

Bəs gələcəkdə nə baş verəcək? Gələcəyi necə təsəvvür edə bilərik və hansı yeniliklərə ehtiyac olacaq?

Bizə birlikdə düşünə biləcəyimiz, bir araya gəlib fikir mübadiləsi aparacağımız və ortaq şəkildə refleksiya edəcəyimiz məkanlar lazımdır. Şəhərlərin gələcəyini təsəvvür etmək üçün tədqiqatçılar, siyasət formalaşdıran şəxslər və praktik mütəxəssislər, yəni siyasətləri dəyişən və yeni yanaşmalar tətbiq edən insanları bir araya gətirməliyik".

**Professor bildirib ki, Bakı da BMT sisteminin bir hissəsi olaraq bu istiqamətdə artıq mühüm töhfələr verib:** “Biz özümüzdən soruşmalıyıq: Necə bir gələcək gözləyirik? Gənclərin arzuları nədir? Qadınların gözləntiləri nədir? Reallıqların fərqli ola biləcəyini anlayaraq müxtəlif ssenarilərə necə hazırlaşa bilərik?

Məhz burada innovasiya həyati əhəmiyyət daşıyır. Biz gələcək barədə fərqli düşünməli, müxtəlif ssenariləri və hazırda üzləşdiyimiz mürəkkəb geosiyasi reallıqları nəzərə almalıyıq. Hazırda bu tərəfdaşlığın praktik istiqamətlərini araşdırırıq və masada çoxlu ideyalar var. Şübhəsiz ki, “World Urban Forum” bu baxımdan vacib platformalardan biridir. İki ildən sonra növbəti Dünya Şəhərsalma Forumu Meksikada keçiriləcək.

“World Cities Report” kimi bilik məhsullarımız da əməkdaşlıq üçün praktik vasitələrə çevrilə bilər. Bundan əlavə, biz şəhər gündəliyini yenidən nəzərdən keçirir və mənzil məsələləri üzrə açıq işçi qrupunu dəstəkləyirik.

Bu gün UN-Habitat bir sıra mühüm hökumətlərarası proseslərdə iştirak edir. Hər il Nyu Yorkda keçirilən Yüksək Səviyyəli Siyasi Forumda Davamlı İnkişaf Məqsədlərinin icmalında iştirak edirik. Beləliklə, bizim praqmatik və effektiv şəkildə əməkdaşlıq etməyimiz üçün çoxsaylı mexanizmlər mövcuddur və məqsədimiz bu tərəfdaşlıq təşəbbüsündən yaranacaq bütün nəticələrin son nəticədə sizin hər biriniz üçün faydalı olmasını təmin etməkdir".

❑ **“Yeni Müsavat”**

# Dövlət strukturlarında çalışanların sayı azalır

## Məmurlar işini itirir, yoxsa bazar dəyişir?



**Azərbaycanda əmək bazarında diqqətçəkən dəyişiklik müşahidə olunur. Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2026-cı il aprelin 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 797,6 min nəfərə çatıb. Maraqlıdır ki, ümumi artım fonunda dövlət sektorunda çalışanların sayı azalıb, özəl sektorda isə ciddi artım qeydə alınıb.**

Rəsmi statistikaya əsasən, mart ayı ilə müqayisədə dövlət sektorunda çalışanların sayı 1,1 min nəfər azalaraq 869,5 min nəfərə düşüb. Eyni dövrdə qeyri-dövlət sektorunda çalışanların sayı isə 14,7 min nəfər artaraq 928,1 min nəfərə yüksəlib.

Bu rəqəmlər təsadüfi dinamika deyil. Əksinə, son illər Azərbaycanda müşahidə olunan iqtisadi transformasiyanın əmək bazarına təsirinin göstəricisi hesab olunur.

Ekspertlər hesab edirlər ki, dövlət sektorunda çalışanların sayının azalmasının bir neçə əsas səbəbi mövcuddur. Birinci səbəb dövlət idarəçiliyində optimallaşdırma prosesidir. Son illər bir sıra dövlət qurumlarında struktur islahatları aparılır, paralel funksiyalar ləğv edilir, bəzi şöbələr birləşdirilir. Elektron xidmətlərin genişlənməsi də insan resurslarına olan ehtiyacı azaldır. Əvvəllər bir neçə əməkdaşın gördüyü işi artıq rəqəmsal platformalar yerinə yetirir.

İkinci mühüm amil pensiya yaşına çatan əməkdaşların sistemdən ayrılmasıdır. Bir çox hallarda vakant yerlər əvvəlki kimi tam həcmdə doldurulmur. Dövlət xərclərinin optimallaşdırılması siyasəti çərçivəsində bəzi sahələrdə yeni işçi qəbuluna məhdudiyyətlər tətbiq olunur.

Digər tərəfdən, müəyyən dövlət müəssisələrinin publik hüquqi şəxs və ya kommersiya modelinə keçməsi də statistik mənzərəni dəyişir. Belə hallarda işçilər formal olaraq artıq dövlət sektorunda deyil, qeyri-dövlət və ya yarımmüstəqil strukturlarda görünürlər.

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, əmək bazarı dinamik sahədir və hər il bu bazara təxminən 100-110 min yeni işçi qüvvəsi daxil olur: “Statistikaya baxdıqda görürük ki, ildə orta hesabla 80-90 min yeni iş yeri yaradılır və həmin iş yerlərinin təxminən 80 faizi Bakı-Abşeron ərazisinin payına düşür.

Sizin də qeyd etdiyiniz kimi, statistikadakı dəyişikliklər əsasən optimallaşdırma prosesi ilə bağlıdır. Hazırda bir sıra idarə və müəssisələrdə islahatlar aparılır, bəzi qurumlar birləşdirilir, müəyyən ixtisarlar həyata keçirilir, eyni zamanda yeni fəaliyyət sahələri yaranır. Bütün bunlar əmək bazarında artım və azalmalar şəklində statistikada özünü göstərir. Bu isə əmək bazarı üçün gözlənilən və proqnozlaşdırılan vəziyyət hesab olunur.

Hesab edirəm ki, əsas diqqət əmək bazarının regionlar üzrə şaxələndirilməsinə yönəlməlidir. İş yerləri yalnız Bakı-Abşeronda deyil, region və rayonlarda da yaradılmalıdır. Bölgələrdə müxtəlif sahələr üzrə yeni iş imkanlarının açılması vacibdir ki, regionlardan paytaxta axının qarşısı alınsın. Hətta bəzi hallarda regionlarda əməkhaqqı sistemi paytaxtla müqayisədə daha motivasiyaedici olmalıdır.

Bu baxımdan bölgələrdə turizmin inkişafı, yeni iş sahələrinin açılması, xüsusilə də gənclərin maraq və psixologiyasına uyğun fəaliyyət istiqamətlərinin yaradılması vacibdir. Əks halda, paytaxtın yüklənməsi artır və bu da sosial təminat, xidmət sektoru və infrastruktur sahəsində əlavə problemlər yaradır".

**Sosioloq bildirir ki, əmək bazarının diversifikasiyasına, iş yerlərinin bölgələr üzrə daha balanslı paylaşdırılmasına ehtiyac var:** “Eyni zamanda optimallaşdırma və ixtisarlar zamanı işini itirən insanların regionlarda və ya digər sahələrdə məşğulluğunun təmin edilməsi üçün alternativ layihələr hazırlanmalıdır. Bu, həm sosial baxımdan dəstək olar, həm də mövcud işçi qüvvəsinin itirilməsinin qarşısını alaraq onların potensialından düzgün istifadə edilməsinə xidmət edər”.

**İqtisadçı ekspert Akif Nəsirli** deyir ki, Azərbaycanda muzdla çalışan işçilərin sayında aylar üzrə artım və azalma əsasən iqtisadi fəallıq, mövsümi işlər, dövlət və özəl sektorun işçi siyasəti ilə bağlı olur. Bəzi aylarda yeni layihələrin başlanması, tikinti, xidmət, kənd təsərrüfatı və turizm sahələrində işlərin canlanması əlavə işçi qüvvəsinə ehtiyac yaradır. Bu zaman xüsusilə özəl sektorda yeni iş yerləri açılır və çalışanların sayı artır: “Özəl sektorda çalışanların sayının artması ölkədə sahibkarlığın və biznes fəaliyyətinin genişlənməsi ilə əlaqədardır. Yeni şirkətlərin açılması, investisiyaların artması və xidmət sektorunun inkişafı daha çox insanın işlə təmin olunmasına səbəb olur. Eyni zamanda bəzi iş yerlərinin qeyri-rəsmi fəaliyyətdən rəsmi əmək münasibətlərinə keçirilməsi də statistik göstəricilərdə artım yaradır.

Dövlət sektorunda çalışanların sayının azalması isə adətən optimallaşdırma, struktur dəyişiklikləri və bəzi dövlət qurumlarında ixtisarlarla bağlı olur. Dövlət xərclərinin azaldılması və idarəetmənin daha səmərəli qurulması məqsədilə bəzi sahələrdə işçi sayı azaldıla bilər. Bununla yanaşı, bəzi əməkdaşların özəl sektora keçməsi də dövlət sektorundakı azalmanın səbəblərindən biridir".

**A.Nəsirlinin sözlərinə görə, mövsümi amillər də mühüm rol oynayır:** “Yaz və yay aylarında kənd təsərrüfatı, tikinti və turizm sahələrində işçi tələbatı artır. Payız və qış aylarında isə bəzi müvəqqəti işlərin başa çatması səbəbindən çalışanların sayında azalma müşahidə oluna bilər.

İqtisadi vəziyyət də əmək bazarına birbaşa təsir göstərir. Ölkədə iqtisadi artım olduqda müəssisələr fəaliyyətlərini genişləndirir və yeni işçilər qəbul edir. Əksinə, iqtisadi çətinliklər zamanı bəzi şirkətlər xərcləri azaltmaq üçün işçi sayını azalda bilər.

Bundan əlavə, minimum əməkhaqqının artırılması, sosial layihələrin həyata keçirilməsi və əmək münasibətlərinin leqallaşdırılması da rəsmi çalışanların sayının artmasına təsir edən amillərdəndir. Bu tədbirlər insanların rəsmi əmək müqaviləsi ilə işləməsinə marağı artırır və nəticədə statistik göstəricilərdə yüksəliş müşahidə olunur".

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 19 (8868) 20 may 2026

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# Bakıya və İrəvana artan səfərlər - bu, iki xalqı barışdıracaqmı?

## Deputat: "Vətəndaş cəmiyyətinin görüşləri ilə problemin həlli mümkün deyil, çünki..."

**Bakı ilə İrəvan arasında sülh gündəliyinin inkişafı üçün vətəndaş cəmiyyətləri də fəallaşıblar. Son aylar hər iki tərəfin QHT rəhbərləri qarşılıqlı səfərlər edir, "Sülh körpüsü" adı altında görüşlər keçirilir. Hətta sonuncu belə görüş üçün quru sərhəddən keçərək Ermənistana və Azərbaycana səfərlər təşkil olunub.**

Bu formatda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin ilk görüşü olan təşəbbüs 8 avqust 2025-ci il tarixində Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannaməsinin ruhuna uyğun olaraq sülh gündəliyinin təşviq edilməsinə yönəldilib. Məlumdur ki, həm işğal illərində, həm də postmüharibə dövründə ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyəti institutları arasında müəyyən təmaslar olub. Bu görüşlər əsasən üçüncü ölkələrin ərazisində baş tuturdu. Bu zaman həm Qərb institutlarının təşəbbüsü əllərində saxlayıb iradələrini diktə etmələri, həm də erməni təmsilçilərinin özlərini "qalib" hesab edərək, fərqli prizmadan mövqe nümayiş etdirməsi bu tip görüşləri faydasız edirdi.

Lakin Azərbaycanın öz torpaqlarını azad etməklə bölgədə yaratdığı yeni reallıqlar və ortaya qoyduğu sülh gündəliyi vəziyyəti kökündən dəyişib. Həm Ermənistan hökuməti, həm də vətəndaş cəmiyyəti ritorikanı dəyişərək, sülhün əldə edilmədiyi hər günün Ermənistanın əleyhinə işlədiyini dərk ediblər. Vətəndaş cəmiyyəti təmsilçilərinin vasitəçi olmadan, yalnız öz hökumətlərinin dəstəyi ilə görüşüb-danışması sülh gündəmi üçün vacib faktor sayılır. Müstəqil şəkildə təşkil edilən görüşlər sülh prosesinin tərəflərində əlavə məsuliyyət yaradır, prosesə təkan verir.

Nəzərə almaq lazımdır ki, iki ölkənin birgə sülh şəraitində yaşaması zəruridir və ömürlük düşmənçiliyin mümkün olmadığı da məhz hər iki xalq tərəfindən qəbul edilməlidir. Həm Azərbaycan xalqı, həm də erməni cəmiyyəti uzun illər müharibə şəraitində yaşayıb. Eyni zamanda Ermənistanda revanşistlərin, Apostol Kilsəsinin və erməni diasporunun beyinləri zəhərləmə kampaniyaları da bu illər ərzində davam edib. Buna görə də iki cəmiyyət və xalq arasında barışığın, birgə sülh şəraitində yaşamağın qəbulu uzun bir prosesdir. Ona görə də həm Azərbaycan, həm də Ermənistanın vətəndaş cəmiyyətlərinin əsas missiyası iki xalqın nümayəndələri arasında ünsiyyətin qurulması və etimadın möhkəmləndirilməsi istiqamətində aparılmalıdır.

Bəs bu görüşlər xalqların barışığını sürətləndirə bilərmi? Sıravi insanların münasibətində son 5 il ərzində dəyişiklik olubmu?



**Deputat Arzuxan Əlizadə "Yeni Müsavat"a bildirib ki, əslində belə görüşlər yaxşı ənənədir:** "Uzun illər Ermənistanın işğalçılıq siyasəti ucbatından düşmənçilik olub. Ümumiyyətlə, Ermənistanda bir azərbaycanlının belə qalmasına şərait yaradılmayıb. Bu müddət ərzində azərbaycanlılara, türklərə nifrət formalaşıb. Azərbaycan cəmiyyətində nifrət hissi yoxdur, amma qarşı tərəfdə mövcuddur".

**Deputat vətəndaş cəmiyyətinin görüşlərindən ciddi nəticə gözləmir. Onun sözlərinə görə, işğal dövründə də "xalq diplomatiyası" adı ilə müxtəlif görüşlər keçirilib, amma nəticəsi olmayıb:** "Sadəcə, ermənilərin zehniyyətində dəyişiklik olmalıdır. Biz yenə də əl uzadırıq, humanizm prinsiplərini üstün tuturuq. Ancaq erməni cəmiyyəti buna adekvat reaksiya vermir. Bu gün də sülhün vacibliyini Azərbaycan təlqin edir. Bunun müqabilində erməni toplumunda bizə nifrət azalmayıb".

**A.Əlizadə qeyd edib ki, belə səfərlər dövlətlərarası münasibətlərin normallaşmasına fon verir:** "Ancaq inanmıram ki, böyük nəticəyə gətirib çıxara bilsin. Erməni xalqı öz beynini təzələməlidir. Biz İrəvanda və başqa şəhərlərdə keçirilən küçə sorğularından da görürük ki, sıravi ermənilərin bizə münasibəti dəyişməyib. Sadəcə, Azərbaycan dövlətinin və ordusunun gücü onlara istədiklərini həyata keçirməyə imkan vermir. Yəni içindəki niyyəti və nifrəti dilə gətirirlər, bundan artığına gücləri çatmır. Ona görə də barışıq üçün uzun müddət lazım gələcək. Təkcə vətəndaş cəmiyyətinin görüşləri ilə problem həllini tapmır. Ancaq o demək deyil ki, bu təmaslar, müzakirələr davam etdirilməməlidir".

**Deputat hesab edir ki, ermənilərin şüurunda stereoptipləri dəyişmək üçün zaman tələb olunur:** "Hətta Paşinyanın düşüncəsini dəyişməsinə də ehtiyac var. Həmin Paşinyandır ki, "Qarabağ Ermənistandır və nöqtə" deyirdi. İndi seçki kampaniyasında keçirdiyi hər görüşdə Qarabağın heç vaxt onlara aid olmadığını təkrar-təkrar etiraf edir. Halbuki onun gücü, şəraiti olsa, Qarabağ mövzusunda fərqli mövqe tuta bilər. Hər bir halda, bu gün Azərbaycan dövlətinin və ordusunun hesabına əldə edilən sülh prosesini inkişaf etdirmək, qorumaq lazımdır. Amma erməni vətəndaş cəmiyyəti ilə danışıqlar sayəsində erməni ictimaiyyətinin fikrini dəyişmək real görünmür. Onlar hələ də düşünürlər ki, Qarabağ ermənilərin olub, guya bu adamları qovmuşuq və sair. Yəni nifrət varsa, xalqların barışığı uzun çəkən proses olacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Ermənilər 1,5 milyon mina basdırıb - komitə sədri açıqladı

**"Azərbaycan artıq beş ildən çoxdur region tarixinin ən genişmiqyaslı və kompleks bərpa-quruculuq proqramlarından birini həyata keçirir".**



"Yeni Müsavat" xəbər verir ki, bunu Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Bağlantının mərkəzində şəhərlər: şəhərlərin yenidən qurulması və regional əməkdaşlıq" mövzusunda xüsusi sessiyada **Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) milli koordinatoru, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev** bildirib. O qeyd edib ki, bu proses vaxtilə dağıntılara məruz qalmış ərazilərin dayanıqlı, inklüziv və gələcəyə yönəlmiş şəhər və kənd icmalarına çevrilməsini hədəfləyir. "Təxminən 30 il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizə yaxını işğal altında qalıb. Bu dövrdə yüzlərlə şəhər, qəsəbə və kənd dağıdılıb, mühüm infrastruktur sıradan çıxarılıb, mədəni irs obyektlərinə ciddi ziyan dəyib, bir milyondan çox azərbaycanlı öz yurdundan didərgin düşüb".

A.Quliyev xatırladıb ki, 2020-ci ildə ərazilərin azad edilməsindən sonra Azərbaycan bərpa, reinteqrasiya və dayanıqlı regional inkişaf mərhələsinə qədəm qoyub: "Azad edilmiş ərazilərdə dağıntıların miqyası misilsiz idi. 900-dən çox yaşayış məntəqəsi zərər görmüş, bütöv şəhər sistemi fəaliyyətini dayandırmışdı. Ağdam şəhəri bu dağıntıların ən görünən nümunələrindən biridir".

O həmçinin vurğulayıb ki, bu cür genişmiqyaslı bərpa prosesi güclü institusional koordinasiya və strateji idarəetmə tələb etdiyindən, Prezident Administrasiyasının rəhbərinin başçılığı ilə Əlaqələndirmə Qərargahı yaradılıb: "Bu mexanizm bütün aidiyyəti dövlət qurumlarını bir araya gətirərək layihələrin əlaqələndirilmiş şəkildə icrasını, monitorinqini və sahədə operativ əməkdaşlığı təmin edir".

**Milli koordinator eyni zamanda azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin edilməsinin ən təxirəsalınmaz prioritet olduğunu da qeyd edib:** "Bu ərazilər dünyanın mina və partlamamış sursatlarla ən çox çirklənmiş bölgələri sırasındadır. 900 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatlarla çirklənib, təxminən 1,5 milyon minanın basdırıldığı ehtimal olunur".

Komitə sədri əlavə edib ki, bərpa işləri ilə paralel olaraq, azad edilmiş ərazilərdə yeni idarəetmə modeli tətbiq edilib: "Prezidentin xüsusi nümayəndələrinin təyin olunması yerli koordinasiyanın gücləndirilməsinə və strateji prioritetlərin yerlərdə daha operativ icrasına imkan yaradıb.

Bundan əlavə, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" azad edilmiş ərazilərdə yenidənqurma və məskunlaşma prosesinin əsas strateji çərçivəsini təşkil edir. 2022-ci ildə təsdiqlənən proqram şəhər və kəndlərin yenidən qurulmasını, infrastrukturun bərpasını, məşğulluq imkanlarının yaradılmasını və geri qayıdan icmalar üçün dayanıqlı yaşayış şəraitinin formalaşdırılmasını nəzərdə tutur".



# BMT Qarabağdakı şəhərsalmanı alqışladı

**Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən yenidənqurma prosesi postmünaqişə dövründə dayanıqlı urbanizasiya yanaşmasının real nümunəsidir.**

Musavat.com xəbər verir ki, bunu Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində "Bağlantının mərkəzində şəhərlər: şəhərlərin yenidən qurulması və regional əməkdaşlıq" mövzusunda xüsusi sessiyada BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bildirib.

O qeyd edib ki, şəhərlərin planlaşdırılması zamanı bütöv ərazilər nəzərə alınmalıdır.

"Nəqliyyat dəhlizlərinə investisiya yatırılarkən həmin marşrut boyunca yerləşən icmaların mənzil təminatı, bazarları, xidmətləri, torpaq resursları və dolanışıq imkanlarına da sərmayə qoyulmalıdır. Dayanıqlı urbanizasiya şəhərləri əhatə edən kənd ərazilərinin inkişafından ayrılmazdır".

Anaklaudia Rossbax bildirib ki, ötən ilin oktyabrında keçirilən Milli Şəhərsalma Forumu çərçivəsində bölgəyə səfəri zamanı mənzil təminatı, ictimai xidmətlər, rəqəmsal bağlantı və yaşıl enerji şəbəkələrinin vahid ərazi baxışı əsasında inteqrasiya olunduğunu müşahidə edib.

"Burada məqsəd şəhər və qəsəbələri ayrı-ayrılıqda bərpa etmək deyil, funksional insan coğrafiyasını yenidən qurmaqdır".

O həmçinin əlavə edib ki, regional nəqliyyat dəhlizləri, enerji xətləri və rəqəmsal şəbəkələr boyunca yerləşən şəhər və kənd icmaları yalnız keçid ərazisi kimi deyil, strateji investisiya məkanı kimi qiymətləndirilməlidir. UN-Habitat rəsmisi sonda WUF13 çərçivəsində keçirilən sessiyanın xüsusi əhəmiyyət daşıdığını bildirib və müzakirələrin yekununda ortaya çıxacaq öhdəlikləri maraqla gözlədiyini vurğulayıb.

YENİ MÜSAVAT
Son səhifə
N 19 (8868) 20 may 2026

May

## Bunları bilirsinizmi?

* İnsanda təqribi 2 milyon tər vəzi mövcuddur. Orta yaşlı adam hər litr tər tökdükdə 54% kalori itirir. Kişilər qadınlara nisbətən 40% çox tərləyirlər.
* İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.
* İnsan gözü 10 000 000 rəng çeşidi fərqləndirməyə qadirdir.
* İnsan ağzında 40 000 bakteriya mövcuddur.
* Papafobiya-Roma papasından qorxmaqdır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* İnsan orqanizmində 2000-ə yaxın dad bilmə reseptoru var.
* İnsan orqanizmində olan piylər 7 ədəd sabun istehsalı üçün lazım olan miqdardadır.
* İnsan bədənində nerv impulsları saniyədə 90 metr sürətlə hərəkət edirlər.
* İl ərzində insan ürəyinin döyüntülərinin sayı 36 800 000-dir.
* Kişilər qadınlara nisbətən 10 dəfə çox daltonizmdən əziyyət çəkirlər.
* Uşaq doğulanda bədənində 300 sümük olur, böyüdükcə onlardan 206-sı qalır.
* İnsan sümüklərinin təqribi yarısı bilək və pəncədə yerləşir.
* Mavi gözlü insanlar digərlərinə nisbətən ağrıya daha həssasdırlar.
* Əl barmaqların dırnaqları ayaq barmaqların dırnaqları ilə müqayisədə 4 dəfə tez böyüyür.
* Ömür boyu insan dərisi 1000 dəfə dəyişir.
* Güclü işıq nəticəsində görmə qabiliyyəti itirmə halına "qar korluğu" deyilir.
* Qripə səbəb olan 100 müxtəlif virus mövcuddur.



## Yer kürəsində güclü geomaqnit qasırğaları ola bilər

**Tədqiqatçılar Günəşin Yerdən görünməyən tərəfində nəhəng ölçülərə malik ləkə qrupu qeydə alıblar. Yeni kəşf edilən bu struktur son illər ərzində müşahidə olunan ən təhlükəli aktivlik ocaqlarından biri kimi qiymətləndirilir. Bu barədə Rusiya Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutunun Günəş Astronomiyası Laboratoriyası məlumat yayıb.**

Məlumata əsasən, bu nəhəng ləkə qrupu potensial olaraq böyük təhlükə vəd etsə də, onun gələcək fəsadları barədə dəqiq proqnoz vermək hələ ki çətindir. Mütəxəssislər qeyd edirlər ki, bu tip kosmik strukturlar güclü partlayışlara və Günəş plazmasının kütləvi şəkildə atılmasına səbəb ola bilər. Bu proses isə öz növbəsində Yer kürəsində güclü geomaqnit qasırğalarının yaranmasına zəmin yaradır.

Hazırda Günəşin görünməyən tərəfindəki aktivliyin monitorinqi davam etdirilir. Təxminən bir həftə sonra həmin ləkələr planetimizdən görünən sahəyə keçəcək, daha bir həftə sonra isə Yerlə tam üzbəüz mövqedə qərarlaşacaq.

Lakin ekspertlər diqqətə çatdırırlar ki, qarşıdakı 14 gün müddətində bu ləkələr bir neçə partlayış yaradaraq tamamilə yoxa çıxa da bilər. Hazırda sözügedən bölgədə kəskin bir aktivlik qeydə alınmır və iki həftə sonrakı vəziyyəti dəqiqliklə proqnozlaşdırmaq olduqca mürəkkəbdir.

## Avstraliyanın ən varlı qadını ABŞ-nin hərbi-sənaye müəssisələrinə 100 milyon dollar sərmayə qoyub



**Mədən sənayesi üzrə ixtisaslaşan "Hancock Prospecting" şirkətinin rəhbəri və Avstraliyanın ən zəngin qadını Cina Raynhart ABŞ-nin hərbi-sənaye kompleksinə aid müəssisələrinə 100 milyon dollara yaxın sərmayə yatırıb. Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.**

Xəbərə əsasən, milyarderə məxsus özəl şirkət ABŞ-nin dörd böyük müdafiə və aerokosmik korporasiyasının - RTX, "Northrop Grumman", "L3Harris Technologies" və "Lockheed Martin"in səhmlərini əldə edib. Martın 31-nə olan göstəricilərə görə, Raynhartın sözügedən şirkətlərə yönəltdiyi ümumi vəsaitin həcmi 97 milyon dollara çatıb. Nəşrin məlumatında qeyd olunur ki, hazırda iş qadınının xalis sərvəti 43.8 milyard dollar həcmində dəyərləndirilir. O, rəhbərlik etdiyi şirkətin investisiya portfelini şaxələndirmək strategiyası vasitəsilə kapitalını artırmağa davam edir.

## Cəsədin üzərində 25 il yaşadı: ABŞ-də səs-küylü qətlin üstü açıldı



**ABŞ-də 25 il əvvəl keçmiş sevgilisini qətlə yetirməkdə təqsirləndirilən şəxs 40 il müddətinə azadlıqdan məhrum edilib. Məlumata görə, o, qadını öldürdükdən sonra cəsədini yataq otağının döşəməsinin altında gizlədib. Bildirilir ki, 34 yaşlı Kimberli Lenqvel 1999-cu ilin iyulunda Texas ştatının Bomont şəhərində itkin düşüb. İşdən qayıtmayan qadının avtomobili sonradan bir aptekin dayanacağında tapılıb. Nəqliyyat vasitəsinin içində qadının mobil telefonu qalsa da, açarları və çantası tapılmayıb. Sonradan istintaq orqanları Lenqvelin sabiq sevgilisi Terri Rouzun izinə düşüblər. Rouzun tanışlarından biri hüquq-mühafizə orqanlarına ifadəsində bildirib ki, o, qətli etiraf edib və qadının başının arxasından atəş açdığını söyləyib. Qətlə yetirilən qadının qalıqları yalnız 2024-cü ilin iyununda məhkumun evində aşkarlanıb.**

Rouz cinayətini boynuna alıb. Məhkəmənin qərarına əsasən, o, vaxtından əvvəl şərti azadlığa buraxılma hüququ əldə etmək üçün təyin olunmuş cəza müddətinin ən azı yarısını həbsxanada çəkməlidir.

## Hindistanda fil turist qadının ölümünə səbəb oldu



**Hindistanın Karnataka ştatındakı safari parklarının birində bədbəxt hadisə nəticəsində qadın turist həlak olub. Bu barədə "The Indian Express" qəzeti məlumat yayıb. Məlumata görə, parkın ziyarətçiləri fillərin çimizdirilməsi prosesini izləyiblər. Bu zaman iki erkək fil arasında qəfildən dava düşüb. Heyvanlardan biri qaçaraq digərini bərk itələyib. Nəticədə tarazlığını itirən nəhəng heyvan orada olan 33 yaşlı turistin üzərinə yıxılaraq onu əzib. Ağır xəsarətlər alan qadın hadisə yerindəcə həyatını itirib. Nəşrin yazdığına görə, yerli rəsmilər hadisə ilə bağlı geniş araşdırma aparılmasını və gələcəkdə analoji halların qarşısının alınması üçün təhlükəsizlik tədbirlərinin gücləndirilməsini tapşırıblar.**

## Rusiyalı qastroenteroloq: "Bananı yeməzdən əvvəl mütləq yuyun"



**Bananları yeməzdən əvvəl yumaq niyə vacibdir? Bu barədə rusiyalı qastroenteroloq Olqa Çistik Lenta.ru nəşrinə müsahibəsində danışıb. Həkimin sözlərinə görə, bananların mağazalara zədələnmədən və kal (yaşıl) halda çatdırılması üçün onlar fungisid və pestisidlərlə - göbələk və həşəratlara qarşı kimyəvi maddələrlə emal olunur. Bu maddələrin bir hissəsi isə meyvənin qabığında qalır:**

"Bananın qabığına bağırsaq çöpü, salmonella, listeriya və bəzən də parazit yumurtaları çökə bilər. İnsan meyvəni əlinə alıb soymağa başladıqda, bütün bu mikroblar barmaqlara, bıçağa və oradan da meyvənin özünə (lətinə) keçir. Daha sonra isə mikroorqanizmlər maneəsiz şəkildə ağıza daxil olur", - deyə Olqa Çistik xəbərdarlıq edib. O qeyd edib ki, sağlam immunitetə malik insanda çirkli banan yemək adətən hər hansı ciddi fəsad törətmir. Lakin uşaqlar, hamilə qadınlar və yaşlı şəxslərdə bu, kəskin qastroenterit xəstəliyinə yol aça bilər.

Həkimin bildirdiyinə görə, çirkli bananı yemək ürəkbulanma, qusma, ishal, qarın sancıları və qızdırma ilə müşayiət olunan qida infeksiyalarına, eləcə də zəhərlənmələrə səbəb ola bilər. Uşaqlar və yaşlılarda isə bu fonda sürətlə susuzlaşma yarana bilir.

Bununla əlaqədar olaraq, Olqa Çistik bananları yeməzdən əvvəl 20-30 saniyə ərzində soyuq axar suyun altında yumağı məsləhət görüb. Lazım gələrsə, qabığı - xüsusən də gövdə ətrafını və tünd ləkələr olan hissələri yumşaq fırça və ya süngərlə təmizləmək olar. Yuyarkən sabundan istifadə etməyə ehtiyac yoxdur, çünki sabun qalıqları qabığın məsamələrində qala bilər.

## Özünü xəstə kimi göstərib bir il hoteldə pulsuz qaldı

**Almaniyanın paytaxtı Berlində bir ildən çox müddət ərzində hoteldə ödəniş etmədən yaşayan 55 yaşlı kişi dələduzluqda ittiham olunur. Yerli prokurorluqdan bildirilib ki, həmin şəxs 2023-cü ilin aprelində həyat yoldaşı və iki uşağı üçün otaq sifariş edib. O, yaşayış qoşqusunun (treylerinin) yandığını, özünün isə xərçəng xəstəliyindən əziyyət çəkdiyini iddia edib. Lakin sonradan bu iddiaların yalan olduğu üzə çıxıb.**

Dələduz həmçinin hoteldəki xərcləri avtomobil klublarından birinin ödəyəcəyini desə də, bunun da həqiqəti əks etdirmədiyi məlum olub. Nəticədə, hoteldə qaldığı müddətdə onun 100 min avrodan çox borcu yaranıb. O, 2024-cü ilin avqustunda hesabı ödəmədən hoteli tərk edib.

Cari ilin mart ayında barəsində həbs-qətimkan tədbiri seçilən şəxs bir müddət saxlanılsa da, sonradan sərbəst buraxılıb. Hazırda faktla bağlı istintaq araşdırmaları davam edir. Təqsirləndirilən şəxsi hansı cəzanın gözlədiyi hələlik məlum deyil.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.